www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 dekabr 2023-cü il Çərşənbə № 224 (8360) Qiymət 60 qəpik

**Xəbər**

## 150 min turist Azərbaycandan narazı qayıdıb - ilginc

yazısı səh.13-də

**Gündəm**

### Sülh sazişinə bu qarant dövlətlər imza ata bilər - adlar



İrəvanın son addımları sülh əldə olunacağına ümidləri artırıb, lakin...

yazısı səh.9-da

### Qızılcaya görə məktəblər bağlanacaq? - nazir açıqladı

yazısı səh.10-da

### 7 fevral seçkisi ilə bağlı antitəbliğat sifarişdir, yoxsa?

yazısı səh.3-də

### İrəvana qaçan separatçılar yenidən fəallaşdılar

yazısı səh.4-də

### Hərbi prokuror "Tərtər işi"ndən danışdı

yazısı səh.5-də

### Serbiya bizə yeni silahlar təklif edir

yazısı səh.6-da

### "Şərq Tərəfdaşlığı"nın uğursuz formulu: ya bizim, ya Rusiyanın yanında...

yazısı səh.7-də

### Zaqatalada çaqqal məktəblilərə hücum etdi

yazısı səh.10-da

### Pandemiya cərimələri seçkiyədək silinə bilər - iddia

yazısı səh.13-də

### Hadrutun adı dəyişsə, nə olacaq?

yazısı səh.2-də

### Doqquz ölkə oldu - Azərbaycan qaz ixracı coğrafiyasını genişləndirir

yazısı səh.12-də

# "ASAN HAKİMİYYƏT" MODELİ - SEÇKİDƏN SONRA İQTİDARDA KİMLƏR QALACAQ?

"Gözlənilir ki, növbəti prezident seçkisində qalib gəlmiş İlham Əliyev fevralın 15-dək yeni komandanın tərkibini elan edəcək



yazısı səh.8-də

# Quru sərhədlər bu səbəblərdən açılmır

Dövlət başçısı İlham Əliyevdən "sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın" mesajı

yazısı səh.5-də



### Baş nazirin son qərarı - Şeyxə etimad azalıb, yoxsa...

yazısı səh.10-da



Aydın Mirzəzadə

### Deputatdan hüquq müdafiəçilərinə ittiham: "Özlərini prokuror kimi aparırlar"

yazısı səh.11-də



### ABŞ-ın Paşinyana KTMT ilə bağlı məsləhəti

yazısı səh.4-də

yazısı səh. 8 və 9-da

# Tələbələrə kirayə və yolpulu verilə bilər



## İrandan Azərbaycana qaçdı, buradan üçüncü ölkəyə gedəcək

**Oktyabrın 12-də Azərbaycan sərhədini keçərkən saxlanılan iranlı siyasi mühacir Puya Purhemmeti ev dustaqlığına buraxılıb. Bu barədə "Turan" agentliyinə onun özü məlumat verib. O, üçüncü ölkəyə getmək istədiyini, çünki Azərbaycanda qalmağın onun üçün təhlükəli olduğunu bildirib.**

Puya Purhemməti İranın əxlaq polisinin nəzarətində olarkən öldürülən Məhsa Əmini ilə bağlı 2022-ci il sentyabrın 29-da Təbrizdə keçirilən etiraz aksiyasının təşkilatçılarından olub.

O, etiraz aksiyasından sonra saxlanılıb, ağır işgəncələrə məruz qalıb. İran məhkəməsi Purhemmətini daxili və xarici qüvvələrlə birləşib hökumət əleyhinə etirazlar təşkil etmə ittihamı ilə 3 il həbsə məhkum edib. Məhkəmə hökmünə görə, həbsindən sonra 2 il də İran ərazisini tərk edə bilməz. Puya həbsdə olarkən də çox ağır işgəncələrə məruz qalıb. Nəhayət, 2023-cü il oktyabrın 9-da girov müqabilində həbsdən buraxılıb.

Həbsdən buraxılandan sonra onu yenidən həbsxanaya qaytarmaq üçün axtarıblar. Bu səbəbdən Puya oktyabrın 12-də Azərbaycanın Biləsuvar rayonu istiqamətində ağ bayraq qaldıraraq İran sərhədini keçərək Azərbaycan sərhədçilərinə təslim olub.

O, Azərbaycan Respublikasından siyasi sığınacaq və ya üçüncü, təhlükəsiz ölkəyə keçirilməsini xahiş edib.

## Yanacaqdoldurma məntəqəsində soyğunçuluq edənlər tutuldu

**Dekabrın 7-də saat 05 radələrində Sabunçu qəsəbəsi ərazisində yerləşən yanacaqdoldurma məntəqələrinin birində operatorun 200 manat pulunun soyğunçuluq yolu ilə talanması barədə Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə məlumat daxil olub.**

DİN-in mətbuat xidmətindən verilən xəbərə görə, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə həmin vaxt "Toyota" markalı avtomobillə yanacaqdoldurma məntəqəsinə gələrək soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Ş.Məmmədov, Masallı rayon sakinləri N.Novruzov və əvvəllər məhkum olunmuş A.Nuriyev saxlanılıblar.

## Xankəndi stadionunda təmir yekunlaşır



**Xankəndi şəhər stadionunda təmir-bərpa işləri sürətlə davam edir.**

Tribunalarda yeni oturacaqların çox hissəsi artıq quraşdırılıb.

Artıq stadionda tribunanın üzərinə "Xankəndi" sözü də yazılıb. Azərbaycan kubokunun 1/8 finalın "Qarabağ" - MOİK matçının məhz bu stadionda keçirilməsi gözlənilir. Oyun dekabrın 21-də baş tutacaq.

## Hadrutun adı dəyişsə, nə olacaq?




**İşğaldan azad edilmiş ərazilərdə kifayət qədər yer adları var ki, gələcəkdə onlara baxılıb dəyişdiriləcək".**

Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov mediaya açıqlamasında bildirib. "Həmin ərazilərin əvvəlki adlarına qayıtması lazımdır. Kəlbəcərin Zardaxaç və Tərtər rayonunun Qasapet kəndlərinin adları illə bağlı keçən komitə iclasında məsələ qaldırıldı. Bir çox yer adları, eynilə Hadrutun adının dəyişdirilməsi də gündəmdə ola bilər. Toponimiya Komissiyası və Dilçilik İnstitutu bununla bağlı əsaslı arayışlar təqdim etməlidir. Həmin adların tarixi kökü, haradan gəlir və s. Ondan sonra cənab Prezident qanunvericilik təşəbbüsü ilə Milli Məclisə müraciət edir. Daha sonra məsələyə bizim komitədə baxılır, plenar iclasa tövsiyə olunur". Xatırladaq ki, işğaldan azad edilmiş iki kəndə 2020-ci ildə yeni ad verilib. Belə ki, Azərbaycan Respublikasının Xocalı rayonunun Qarabulaq kənd inzibati ərazi dairəsi tərkibindəki Quşçubaba kəndi Baharlı adlandırılıb.

Xocavənd rayonunun Çiraquz kənd inzibati ərazi dairəsi tərkibindəki Tsakuri kəndi isə Hünərli adlandırılıb.



**"Tələbələrin nəqliyyat və kirayə pulunun ödənilməsində yaşadıqları çətinliklərin aradan qaldırılması hədəflənir". Bunu Təhsil Tələbə Kredit Fondunun şöbə rəisi Tehranə Abdullayev bildirib.**

O deyib ki, bu məqsədlə müəyyən mexanizm təklif edilir. Yeniliklərdən biri əvvəllər fondun standart paketindən istifadə edərkən tələbənin ödədiyi 20%-lik vəsaitlə bağlıdır. Digər bir yenilik sosial cəhətdən həssas qrupları əhatə edir. Yeniliklərin qüvvəyə minməsi üçün Nazirlər Kabineti müvafiq qərar qəbul etməlidir.

United Nations Climate Change COP 29
UNFCCC November 2024

## COP-29 Bakıda keçiriləcək

**İqlim Dəyişikliyi üzrə BMT konfransı - COP 29 gələn il Azərbaycanda keçiriləcək. Bu barədə qərar Dubayda keçirilən COP28 plenar sessiyada elan olunub.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransı 1995-ci ildən hər il keçirilir. Bu tədbirin keçirilməsində əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirməkdir. 1990-cı illərin ortalarından başlayaraq sözügedən konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri ehtiva edən Kyoto Protokolu müzakirə olunmuşdu.

2011-2015-ci illərdə keçirilən sessiyalarda iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Bu günədək 195 ölkə, o cümlədən Azərbaycan bu razılaşmaya qoşulub.

## "Qarabağ" - "Hakken" matçının hakimləri bəlli oldu

UEFA EUROPA LEAGUE

**"Qarabağ" və İsveçin "Hakken" komandaları arasında Bakıda keçiriləcək UEFA Avropa Liqasının qrup mərhələsinin VI turunun matçının təyinatları bəlli olub. Qarşılaşma Albaniyadan olan hakimlər briqadasına tapşırılıb.**

FIFA referisi Yucin Cayaya Doyando Miftari və Rejdi Avdo kömək edəcəklər. Dördüncü hakim funksiyasını Olsion Yzeiraj yerinə yetirəcək. VAR-da italiyalı Luka Payretto və Valerio Marini yer alacaq. Maltalı Alan Mario Sant hakim-inspektor olacaq.

Qeyd edək ki, dekabrın 14-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Qarabağ" - "Hakken" görüşü saat 21:45-də başlayacaq. Hazırda Azərbaycan çempionu 7 xalla H qrupunda 2-ci pillədə qərarlaşıb. "Hakken"in isə hesabında xal yoxdur.

## Azad edilən ərazilərə din xadimləri təyin ediləcək

**Azad olunan ərazilərdəki məscidlər, dini abidələr bərpa olunur. Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib.**

Onun sözlərinə görə, Heydər Əliyev Fondu bu istiqamətdə geniş işlər görür. Bu yaxınlarda Şuşanın Yuxarı Gövhər Ağa məscidinə imam təyin edilib. Digər məscidlərdə də təmir işləri başa çatdıqdan sonra müvafiq qurumların müraciəti əsasında müsahibədən keçmək şərtilə din xadimlərinin təyinatı həyata keçiriləcək".

## Güclü zəlzələ ehtimalı yoxdur

**Bir gün ərzində Azərbaycanda 47 yeraltı təkan qeydə alınıb.**

Bunu AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli jurnalistlərə açıqlamasında deyib. O, hansısa bir zonada güclü zəlzələnin baş verməsi ehtimalının olmadığını vurğulayıb.

"Narahatlığa heç bir əsas yoxdur", - Qurban Yetirmişli qeyd edib.

Baş direktor bildirib ki, bu cür yeraltı təkanların olması enerji boşalması üçün əhəmiyyətlidir.



## Aİ müşahidəçilərinin sayını ikiqat artırdı - Ceyhun Bayramovun mövqeyi

**Avropa İttifaqı ölkələrinin xarici işlər nazirləri qurumun Ermənistandakı mülki missiyasının üzvlərinin sayını 138 nəfərdən 209 nəfərə qədər artırmaq barədə qərar qəbul edib.**

Bu barədə Aİ-nin xarici siyasət idarəsinin rəhbəri Jozep Borrel bildirib.

"Bu, missiyanın sayının mühüm artımıdır və Ermənistanın Azərbaycanla beynəlxalq sərhədində sabitliyini gücləndirmək məqsədi daşıyır", - Borrel deyib.

Dövlətlərin bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət edilməsi Cənubi Qafqazda davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yoldur". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Şərq Tərəfdaşlığı" ölkələrinin xarici işlər nazirlərinin görüşündə çıxışı zamanı deyib.

"Aİ-nin Ermənistandakı monitorinq missiyasına gəlincə, ilkin vədlərə əməl olunmayıb, anlaşma pozulub və mandat özbaşına genişləndirilib. Bu missiya regionda sabitliyə və Ermənistanla Azərbaycan arasında etimada töhfə vermək kimi bəyan etdiyi məqsədlərinə nail ola bilmədi. Əksinə, bu missiya Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə istifadə olunur.

Ermənistanı, o cümlədən Aİ vasitəsilə silahlandırmaq kimi sabitliyi daha da pozan təşəbbüslər irəli sürülür. Bu cür təşəbbüslərin Aİ-nin "tərəfsiz vasitəçi" kimi etibarı və ümumilikdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması səyləri üçün mənfi nəticələri qaçılmazdır. Bir tərəfdaşı digərinə qarşı silahlandırmaq və ya başqa şəkildə istifadə etmək heç bir halda "Şərq Tərəfdaşlığı"nın elan edilmiş məqsədlərinə uyğun ola bilməz", - deyə o qeyd edib.

# 7 fevral seçkisi ilə bağlı antitəbliğat sifarişdir, yoxsa?

## İlham Əliyevin prezident seçkisində namizəd olacağı elan edildi - yaxın günlərdə YAP İdarə Heyəti bu qərarı rəsmiləşdirəcək

**Növbədənkənar prezident seçkisi elan olunduqdan sonra bəzi çevrələrdə mənasız "dedi-qodu" xarakterli müzakirələr başlamışdı. Xaricdən maliyyələşən bəzi blogerlər, bəzi şəxslər məntiqsiz iddialar səsləndirirlər ki, guya İlham Əliyev öz namizədliyini verməyəcək.**

Dekabrın 12-də bu əsassız söz-söhbətə nöqtə qoyuldu. Yeni Azərbaycan Partiyasının sədr müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov hakim partiyanın 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkisində namizədinin İlham Əliyev olacağını bəyan etdi. O bildirib ki, YAP İdarə Heyəti növbədənkənar prezident seçkisi ilə əlaqədar tədbirlər planını yekunlaşdırmaq üzrədir. Tahir Budaqov qeyd edib ki, yaxın günlərdə YAP İdarə Heyətinin iclası olacaq və prezidentliyə namizəd irəli sürüləcək. O qeyd edib ki, sonuncu qurultayda İdarə Heyətinə belə bir səlahiyyət verilib.

**YAP sədrinin müavini diqqətə çatdırıb ki, artıq prezidentliyə namizəd bəllidir:** "Uzun illərdir hamı deyirdi ki, kim Qarabağı azad edəcək, o bizim əbədi prezidentimiz olacaq. Düşünürəm ki, İlham Əliyev 20 ildə həyata keçirdiyi siyasətlə, Azərbaycan xalqına xidmətlə və işğal olunmuş əraziləri azad etməklə bu vəzifəni, bu titulu daşımağı qazanıb. Hər bir vətənpərvər azərbaycanlı bu fikirdədir. İdarə Heyətinin iclasında da hər kəs öz fikrini bildirəcək. YAP-ın fikri bu barədə qətidir".

Seçkiyə qarşı təbliğat aparanların daha bir iddiası isə bundan ibarətdir ki, xüsusi karantin dövründə seçki keçirilməməlidir.

Bəs bu cür antiseçki təbliğatının aparılması hansısa dairələrin sifarişidir, yoxsa boşboğazlıqdan irəli gəlir? Karantin rejimi seçkilərə mane törədir?

**Yeni Azərbaycan Partiyasından deputat Hikmət Babaoğlu** deyib ki, Azərbaycanın zəfərini həzm edə bilməyən xaricdən idarə olunan müxtəlif təxribatçı qruplar var. Onlar mümkün qədər prezident seçkisinə kölgə salmağa cəhd göstərirlər, ictimai rəyi çaşdırmağa, onu manipulyasiya etməyə çalışırlar: "Əgər biz bu gün qürurla tarixi zəfərimizdən, Azərbaycan Konstitusiyasının ölkəmizin bütün ərazisində bərpa olunmasından danışırıqsa, şübhəsiz ki, bütün bunları həyata keçirən siyasi liderdən, dövlət xadimindən də danışmalıyıq ki, o da Prezident İlham Əliyevdir. Belə olan halda heç şübhəsiz ki, bundan sonrakı mərhələdə də bu inkişafın davamının təmin olunması, Azərbaycanın yeni hədəflər uğrunda yeni məqsədlərini reallaşdırması üçün namizədimiz də bəllidir. Blogerlər hansı fikirlər səsləndirirlərsə, haradan direktiv alırlarsa, bu da onların öz işidir. Düşünürəm ki, görülən və görüləcək böyük işlər kontekstində onların səsi eşidilmir".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə isə bildirdi ki, növbədənkənar prezident seçkisinin keçirilməsi ilə bağlı bəzi boşboğazların dedi-qodusu müəyyən suallar yaradır:** "İstər-istəməz düşünürsən ki, bu boşboğazlar irəli sürdükləri fikirləri xaricdən verilən sifarişlər əsasında deyirlər, yoxsa siyasətdən başı çıxmayan sosial şəbəkə "qəhrəmanlarına" xas özfəaliyyətdir. Seçki təyin olunandan bir gün sonradan etibarən əsas təbliğatı bu istiqamətdə qurdular ki, İlham Əliyev namizəd olmayacaq və sair. 12 dekabrda Tahir Budaqovun verdiyi açıqlama ilə bu iddiaların əsassız olduğu bir daha təsdiqləndi. Antiseçki təbliğatı aparanların bütün iddiaları əslində boşboğazlıqdır, qəsdən uydurulan iddialardır. Bu gün İlham Əliyevə alternativ ola biləcək qüvvə yoxdur. Qalib sərkərdəni Azərbaycan xalqı yüksək səs çoxluğu ilə prezident seçəcək.

COVİD-19 pandemiyasının bütün dünyanı bürüdüyü dövrlərdə belə, dünyanın bir sıra dövlətlərində parlament və prezident seçkiləri keçirildi. İnsanlar maska ilə seçki məntəqələrinə gəlirdilər. Yəni hətta o cür ciddi sərt karantin dövründə belə, dünya ölkələrində seçkilər keçirildiyi təcrübələri mövcuddur. Hazırda isə sərt karantin rejimi deyil, bütün sahələrdə normal adi iş rejimində insanlar fəaliyyət göstərir, toylar, şənliklər, yas məclisləri adi qaydada keçirilir, ticarət mərkəzləri, məktəblər fəaliyyət göstərir, qapanmalar yoxdur. Hazırda Azərbaycanda insanlar pandemiyadan əvvəlki dövrdəki sərbəst həyat və fəaliyyətlərini davam etdirirlər. Belə olduğu halda, seçkinin karantin rejimində keçirilməsini sanki dəhşətli bir hal kimi təqdim etmək absurddur.

Əhalinin guya seçkiyə gəlməyəcəyi təbliğatını aparanların da arzuları ürəyində qalacaq. Azərbaycan xalqı qalib xalq olaraq, bütün ərazilərini işğaldan azad etmiş xalq kimi bu seçkiyə daha aktiv şəkildə qatılacaq. Azərbaycan xalqı müzəffər Prezident İlham Əliyevin bir çağırışı ilə ən yüksək səviyyədə seçkidə iştirak edib səs verəcək. Azərbaycanın müstəqilliyinin bərpasından indiyə qədər olan dövrdə ilk dəfə bütün ərazilərimizdə seçki keçiriləcək. 7 fevral növbədənkənar prezident seçkisi həm də bu baxımdan əlamətdar hadisə kimi tarixə düşəcək".

Beləliklə, hakim partiyanın namizədinin kim olacağı elan edildi. Bəs müxalifətdən namizədlər nə zaman müəyyən ediləcək?

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə Musavat.com-a açıqlamasında bildirib ki, bu həftənin cümə günü partiyanın Siyasi Şurasının iclası çağırılıb:** "Bu iclasda partiyanın seçkilərdə hansı formada iştirakı ilə bağlı məsələ müzakirə olunacaq. Eyni zamanda öz namizədimizin olub-olmayacağı müəyyənləşdiriləcək".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev növbədənkənar prezident seçkisində iştirak edib-etməməklə bağlı yekun qərarın Siyasi Şuranın iclasından sonra veriləcəyini bildirib:** "Siyasi Şuranın bir neçə üzvü Bakıda olmadığı üçün iclas bu həftəyə təyin olunub. Növbədənkənar seçki elan olunduğu gündən məsləhətləşmələr aparılıb. Yekun qərar qəbul ediləndə açıqlama verəcəyik".

**Ağ Partiya başqanı Tural Abbaslı isə bildirib ki, son qərarı bu həftə ərzində verəcəklər:** "Nəzərə almaq lazımdır ki, seçkidə iştirak edəcəyiksə, artıq qərar verilməlidir, çünki zamanın az olması ilə bağlı çətinliklər var. Müxalifət partiyası olaraq resurslarımız və imkanlarımız məhduddur. Eyni zamanda gələn il referendumu da nəzərə alsaq, 3 seçkinin keçirilməsi gözlənilir. Buna görə də resurslarımızı, gücümüzü, mümkün maliyyə hesablarımızı elə hesablamağa çalışırıq ki, siyasi imkanlarımızı itirməyək. Proses öz-özlüyündə ağırdır. 40 min imzanın toplanması üçün zaman və resurs lazımdır. Qış aylarında imza toplamaq çətin olacaq. Partiyalar öz resursları-üzvlük haqları, ianələr hesabına namizəd irəli sürsələr belə, qeydiyyata alınıb-alınmamaq sual altındadır. 3 aydan sonra parlament seçkisi keçiriləndə yenidən üzvlərə müraciət edib imza toplamaq, namizəd irəli sürmək lazım olacaq. Yəni ümumilikdə çox çətin prosesdir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**






# Prezident Ümummilli liderin məzarını ziyarət edib

## Vəfatının 20-ci ilində Heydər Əliyev böyük ehtiramla yad edildi



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il tam olub. Dekabrın 12-də Prezident İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib.**



Prezident İlham Əliyev Ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səsləndirilib.

Dövlət başçısı İlham Əliyev Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyub.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Gün ərzində bütün dövlət idarə və müəssisələri, eləcə də ictimaiyyət nümayəndələri Ulu öndərin məzarını ziyarət ediblər, ona öz ehtiramlarını bildiriblər.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycandakı dini konfessiyaların rəhbərləri və din xadimləri Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Bildirilib ki, din xadimləri Ulu öndərin ruhuna dualar oxuyub, məzarı önünə güllər düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı önünə güllər düzülüb.

Ümummilli lider Heydər Əliyevin xatirəsi Ankarada da yad edilib.

Bu barədə Azərbaycanın Türkiyədəki səfirliyindən bildirilib.

Qeyd olunub ki, diplomatik korpusun rəhbər heyəti və qardaş ölkədə səfərdə olan Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası işçi qrupu heyəti Ankaradakı Heydər Əliyev parkını ziyarət edib, Ulu öndərin abidəsi önünə çələng qoyublar.

Gürcüstanın Batumi şəhərində Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevə həsr olunmuş və ölkəmizin Gürcüstandakı səfirliyinin dəstəyi ilə çəkilmiş "Dostluğun siması" adlı sənədli filmin təqdimatı olub.

"Report"un yerli bürosu xəbər verir ki, film fenomen şəxsiyyət, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edir.

# ABŞ-ın Paşinyana KTMT ilə bağlı məsləhəti

## Amerikalılar Rusiyanın sərt addım atacağı təqdirdə Ermənistana təhlükəsizlik zəmanəti verməyə hazır deyil

**“Rusiyanın Ermənistana təsirinin aradan qalxdığını demək olmaz, baxmayaraq ki, bu təsir artıq nəzərəçarpacaq dərəcədədir”, - Erməni hərbi analitiki və tədqiqatçısı Leonid Nersisyan BBC-nin rus xidmətinə müsahibəsində belə deyib.**

“Cəmi iki-üç il əvvəl Ermənistanla sərhəddə avropalı müşahidəçiləri təsəvvür etmək mümkün deyildi. O zaman kimsə bunu mənə desəydi, mən cavab verərdim ki, bu, sadəcə, gülüncdür, belə ola bilməz. Yaxud Ermənistan KTMT-yə məhəl qoymayacaq və oradakı iştirakını faktiki olaraq donduracaq”, - deyə politoloq bildirib. (Haqqın.az)



Ermənistanın yeni müttəfiqlər axtarışını şərh edən BBC qeyd edir ki, son vaxtlar müttəfiq olan iki ölkə arasında kifayət qədər soyuq münasibətlər olmasına baxmayaraq, Moskva hələ də İrəvan üzərində güclü təsir rıçaqlarına malikdir. Məsələn, Nikol Paşinyan KTMT-nin Minsk sammitində iştirakdan imtina edən kimi ermənilər Gürcüstan-Rusiya sərhədindəki yeganə keçid məntəqəsini olan Yuxarı Larsda problem yaşamağa başlayıb. Nəticədə, Rusiya fitosanitar nəzarəti Ermənistandan gələn yüklərə qarşı tələbləri sərtləşdirdiyindən tez xarab olan balıq və meyvələri daşıyan yüzlərlə Ermənistan nömrəli yük maşını keçid məntəqəsində ilişib qalıb. Həmçinin qeyd olunur ki, bütün siyasi fikir ayrılıqlarına baxmayaraq, hazırda Ermənistanın ixracatının demək olar ki, yarısı Rusiyaya gedir. Üstəlik, bu rəqəm Ukraynada müharibə başlayandan dərhal sonra sürətlə artmağa başlayıb.

BBC qeyd edir ki, Rusiya təbii qazın əsas tədarükçüsü olaraq Ermənistanda həyatın mühüm enerji sektoruna nəzarət edir. Ona görə də Rusiya öz resurslarını əlində saxlayır ki, “qırmızı xətlər” keçilərsə, Ermənistana onu hansı problemlərin gözlədiyini göstərsin. Yeganə sual, Rusiyada belə qərarlar verən yeganə şəxsin “qırmızı xətti” nə hesab edəcəyidir. Bəzi ekspertlər bunun səbəbinin ermənilərin KTMT-dən çıxması ola biləcəyini ehtimal edir. İndi Ermənistan sırf nominal olaraq bu strukturun üzvüdür və ölkədə bu üzvlüyün kağız üzərində də xətm edilməsi çağırışları getdikcə daha çox səslənir. Lakin ölkə hakimiyyəti hələlik belə bir addım atmağa hazır deyil. Bununla bağlı risklər həddən artıq çoxdur.

**İrəvanlı politoloq Tiqran Qriqoryan BBC-yə müsahibəsində bildirib ki, bir neçə ay əvvəl Amerika tərəfi Ermənistan rəhbərliyinə KTMT-dən çıxmamağı tövsiyə edib.** “Çünki indiki mərhələdə nə amerikalılar, nə də avropalılar Rusiyanın sərt addım atacağı təqdirdə Ermənistana təhlükəsizlik zəmanəti verməyə hazır deyillər”, - deyə Qriqoryan izah edib.

Qeyd edək ki, Ermənistan hakimiyyəti KTMT-də iştirakını dayandırsa da, bu blokdan çıxmaq məsələsinin gündəmdə olmadığını dəfələrlə bəyan edib. Bununla bağlı baş nazir Paşinyan və komandasının üzvləri eyni tezisi təkrarlayırlar ki, “KTMT-ni Ermənistan deyil, Ermənistanı tərk edən KTMT olub”. Gümrüdən hərbi baza da gündəmdə deyil. Baxmayaraq ki, bir neçə ay əvvəl Paşinyan “The Wall Street Journal”a müsahibəsində Ermənistana bu baza lazım olmadığını demişdi. Rusiya buna qəzəblə yanaşıb və ona xatırladıb ki, 102-ci baza ilə bağlı müqavilə 2040-cı ildə başa çatır və o vaxta qədər heç kim müqavilənin birtərəfli qaydada ləğvini tələb edə bilməz.

Ermənistan hakimiyyətinin Rusiyadan tədricən uzaqlaşmaq siyasətində kəskin hərəkətlərdən imtina etməsinin səbəbi, şübhəsiz ki, Qərbdən etibarlı təhlükəsizlik təminatlarının olmaması ilə bağlıdır. Hansı ki, rəsmi İrəvan bu məsələ ilə bağlı Qərb tərəfdaşları ilə intensiv məsləhətləşmələri davam etdirir. Məsələn, elə ötən həftə Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Vaşinqton və Londonda müvafiq danışıqlar aparıb.

❑ **“Yeni Müsavat”**

# İrəvana qaçan separatçılar yenidən fəallaşdılar

## Özünü “Qarabağ parlamentinin deputatı” adlandıran bir qrup separatçı gizli toplantı keçirərək “azadlıq mübarizəsini” davam etdirəcəklərini bildirib



**İrəvana sığınan Qarabağ separatçıları son vaxtlar yenidən fəallaşıblar. Dekabrın 10-da İrəvandakı şəxsi mənzillərin birində qondarma “müstəqil Qarabağ Respublikasının” elan edilməsinin ildönümünə həsr olunmuş özünü “Qarabağ parlamentinin deputatı” adlandıran bir qrup separatçı gizli toplantı keçirib.**

Daha sonra onlar müharibədə həlak olanların toplu qəbiristanlığını ziyarət ediblər. Qondarma “Dağlıq Qarabağ parlamenti”nin adından yayılan bəyanatda bildirilib ki, Samvel Sahramanyan “özünü ləğv etmək haqqında məlum fərmanı imzalamağa məcbur olub”. Separatçılar bu “fərmanı” “antikonstitusiya sənədi” adlandırıb və “minlərlə ermənin həyatı bahasına olan hüquq və azadlıq mübarizəsini” davam etdirmək əzmində olduqlarını bildiriblər.

Həmin gün “Dağlıq Qarabağın nümayəndələri” adından çoxsaylı beynəlxalq təşkilatlara ünvanlanmış müraciət yayılıb ki, orada “bir çox dövlətlərin rəhbərləri ermənilərin Qarabağa qaytarılmasının zəruriliyindən danışırlar”.

Separatçıların fikrincə, Qarabağ erməniləri Azərbaycanın yurisdiksiyasına qayıda bilməz, o səbəbdən Bakı öz qoşunlarını və polisini çıxarmalı, BMT-nin mandatı altında beynəlxalq sülhməramlı qüvvələr regiona yerləşdirilməli və demilitarizasiya zonası yaradılmalıdır. Laçın dəhlizinə və Qarabağın dağlıq hissəsinə gəlincə, onlar da BMT-nin nəzarətinə verilməlidir.

Yenidən suveren Azərbaycan ərazilərinə iddialar irəli sürən Qarabağ separatçılarının qalıqlarının növbəti fəallaşmasının arxasında əvvəlki kimi Ermənistanın revanşist dairələri və erməni diasporunun dayandığını təxmin etmək çətin deyil. Ermənilər başa düşmür ki, öz ərazilərini üzərində tam suverenliyini bərpa edən Azərbaycan reallıqla əlaqəni tamamilə itirmiş bir dəstənin “gizli görüşlərinə” və absurd bəyanatlarına ciddi reaksiya verməyəcək. Nəhayət, bu insanlar Azərbaycan ərazisində 35 il davam edən təcavüzkar separatizm siyasətinin iflasa uğramasından sonra qızışmış eqolarına təsəlli vermək üçün Ermənistan ərazisində yeni “Artsax respublikası” elan edə bilərlər. Bütün bunlar, təbii ki, Azərbaycanın mənafeyinə təhlükə yaratmayacaq.

Haqqın.az yazır ki, amma məsələnin başqa tərəfi də var - separatçıların fəallaşması Ermənistandakı revanşist dairələrin strateji planlarının tərkib hissəsi ola bilər ki, onlar Azərbaycana yeni ərazi iddiaları irəli sürmək, hətta mümkünsə, Ermənistanı yeni müharibəyə təhrik etmək arzusundadırlar.

Bu potensial riskləri nəzərə alaraq, Azərbaycan Prezidenti İlham Əliyev ötən həftə ADA Universitetində keçirilən forumda deyib ki, sülh müqaviləsində Ermənistan bundan sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyəcəyinə qarantiya verməlidir. Bəli, Ermənistanın indiki hökuməti dəfələrlə təsdiqləyib ki, Qarabağ adlanan məsələ həll olunub və Ermənistan üçün belə problem mövcud deyil. O da aydındır ki, sülh müqaviləsi layihəsində Qarabağ problemindən bəhs edilmir. Bunu Ermənistan XİN-in keçmiş rəhbəri, revanşizm ideyalarının tərəfdarlarından biri olan Vardan Oskanyan Ermənistan üçün “ən böyük təhlükə” adlandırıb və vurğulayıb ki, rəsmi İrəvan Azərbaycanla sülh sazişi imzalamaqla, Ermənistana qarşı yeni təhdidlər yaratmaq niyyətindədir.

Ermənistanda hakim “Mülki müqavilə” partiyası da Qarabağ separatçılarının fəallaşmasının arxasında Serj Sərkisyanın və Robert Köçəryanın başçılıq etdiyi siyasi qüvvələrin dayandığına inanır. Nikol Paşinyanın tərəfdaşlarından biri, deputat Gevorq Papoyan “Dağlıq Qarabağ parlamentinin deputatlarının” Ermənistanda görüşlərinin yolverilməz olduğunu bəyan edib. Onun sözlərinə görə, qondarma “DQR”in təslim olması və özünün ləğvi ilə bağlı sentyabr qərarını Şahramanyan deyil, Köçəryan və Sərkisyan verib.

“Dağlıq Qarabağın ordusunu darmadağın edib, silahlarını Azərbaycana veriblər, Dağlıq Qarabağın parlamentini buraxıblar və Ermənistana gəliblər ki, burada sessiya keçirsinlər? Bu, Ermənistana qarşı bombadır, bu qəbuledilməzdir! - deyə Papoyan separatçılara "ağıllarını başına yığmağı" tövsiyə edib.

Bundan əvvəl Ermənistan parlamentinin spikeri Alen Simonyan Ermənistanda qondarma “parlament” və digər separatçı strukturların mövcudluğunu ölkənin milli təhlükəsizliyinə təhdid adlandırıb və buna görə müxalifət tərəfindən sərt tənqidlərə məruz qalıb.

Simonyan yüz faiz haqlıdır: Azərbaycana ərazi iddiası ilə çıxış edən revanşist qüvvələrin fəaliyyəti genişlənərsə və onlar, nəhayət, gələcəkdə hakimiyyətə gələ bilsələr, o zaman Ermənistanı böyük ehtimalla qanlı müharibə gözləyəcək. Digər tərəfdən, Azərbaycan görsəydi ki, Ermənistanda revanş tərəfdarları hakimiyyətə gəlir, qabaqlayıcı addımlar atmaqdan çəkinməz. Deməli, indiki situasiyada ən doğrusu erməni revanşizminin dirçəlməsi və güclənməsi təhlükəsini kökündən kəsməkdir.

❑ **“Yeni Müsavat”**



YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Pandemiya səbəbindən bağlanan quru sərhədlər artıq bir neçə il keçməsinə baxmayaraq, hələ də açılmayıb. Hazırda Azərbaycan quru sərhədləri bu səbəbdən bağlı olan yeganə ölkədir. Quru sərhədlərinin bağlı olmasının ölkəmizdə ən müsbət amil kimi turizm sektoruna təsiri göstərilsə də, qeyd edək ki, bu sektorda ötən dövrdə heç bir ciddi irəliləyiş müşahidə edilməyib. Bəzi iddialara görə, Azərbaycan iqtidarı Rusiyadan gələn və ya potensial olaraq gələ biləcək axından narahatdır.**

# Quru sərhədlər bu səbəblərdən açılmır - Prezidentin izahı

## Dövlət başçısı İlham Əliyevdən “sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın” mesajı; ekspertlər də bu qərarı birmənalı təhlükəsizliklə əlaqələndirir

“Yeni Müsavat” bildirir ki, son olaraq dövlət başçısı İlham Əliyev “Euronews” televiziyasına müsahibəsində sərhədlərlə bağlı danışmışdı. “Əsas beynəlxalq aktorlarla yaxşı siyasi əlaqələri olan, özünü təmin edən iqtisadiyyat və ölkədəki siyasi sabitlik və birlik - bütün bu amillər onu göstərir ki, bizdə daxili risklər yoxdur. Xarici risklər, bəli, var, lakin bu, sərhədlərimizin xaricindəki vəziyyətdən asılı olacaq. Sərhədlərimizin xaricində Şimala doğru müharibə gedir, Yaxın Şərqdə qeyri-sabit vəziyyət mövcuddur, regionumuzda potensial gərginliklər var. Beləliklə, bu, Azərbaycan üçün potensial risk ola bilər. Bu məqsədlə biz sərhədlərimizin müdafiəsinə daha çox diqqət yetirməliyik ki, sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın”, - deyə dövlət başçısı bildirmişdi.

Bəs “dostlarımız üçün açıq, bizə zərər vermək istəyənlər üçün bağlı qalsın” fikrinin arxasında hansı gerçəklər dayanır? Azərbaycan hər zaman şimal və cənub sərhədlərindən zərər gözləyib, həm də görüb. Bunu nəzərə alsaq, Rusiya və İran sərhədlərinin bağlı qalacağını, qərb sərhədlərinin açılacağını gözləmək olardı. Yəni Gürcüstan və Türkiyə istiqamətində quru sərhədlər açılmalıydı, lakin heç biri olmadı. Beləliklə, Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadıldı. Artıq bununla bağlı baş nazir Əli Əsədov Qərar imzalayıb. Qərara əsasən, koronavirus (COVİD-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 aprel saat 06:00-dək uzadılıb. Qeyd edək ki, bundan əvvəlki qərar 2024-cü il 2 yanvar saat 06:00-dək olan dövrü əhatə edib. Xatırladaq ki, quru sərhədlərin açıq olması eyni zamanda bir çox vətəndaşların, o cümlədən sərhədyanı bölgələrdə yaşayan əhalinin dolanışığı üçün əsas amillərdən biri idi. Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov bugünlərdə deyib ki, sərhədlərin bağlanmasının büdcəyə xeyri proqnozdan azdır.




**Hərbi ekspert Ramil Məmmədli “Yeni Müsavat”a açıqladı ki, Azərbaycan dünyada gedən mürəkkəb prosesləri, onun küləyinin regiona təsirlərini müşahidə etməkdədir. Ekspertin sözlərinə görə, Azərbaycan dövləti təhlükəsizlik parametrlərinə riayət edir:** “Şimal-Qərb qarşıdurmasının qəlpələri istər-istəməz bizə də toxuna bilər. Bu qarşıdurmada Azərbaycan öz istiqamətini müəyyən edib və quru sərhədlərin qapalı saxlanması rəsmi şəkildə təhlükəsizliklə əlaqələndirilməsə də, görünən budur ki, əsl səbəb məlumdur. Əgər dövlətin ciddi informasiyaları, kəşfiyyat məlumatları varsa, eləcə də prosesləri təhlil edən strateji mərkəzi bu qənaətdədirsə, deməli, quru sərhədlərin təhlükəsizlik nöqteyi-nəzərdən qapalı saxlanması məntiqlidir. Biz müharibədən yeni çıxmış dövlətik, ətrafımızda müxtəlif hadisələr cərəyan edir və bütün bu prosesləri nəzərə alaraq, dövlət belə bir addım atmaq qərarı verib”. **R.Məmmədli şimalda gedən müharibənin gələn il daha da kəskinləşəcəyini gözləyir:** “Rusiya baş nazirinin müavini də açıqladı ki, 2024-cü ildə müharibə davam edəcək. Qərb yeni yardımlar ayırmağı planlaşdırır, Bayden Zelenskini çağırdı və Vaşinqton dəvəti "təcili dəstək" adı ilə əlaqələndirdi. Ona görə də müharibə gələn il şiddətli forma ala bilər. Üstəlik, həm Rusiya, həm Amerikada seçkilərdir, Azərbaycanda da fevralda prezident seçkisi keçiriləcək. Bu amillər siyasi görünsə də, arxasında təhlükəsizlik faktorları dayanır. Mən quru sərhədlərin bağlı saxlanmasında başqa bir səbəb görmürəm".

**REAL Partiyasının Siyasi Komitəsinin üzvü Natiq Cəfərlinin “Yeni Müsavat”a bildirdiyinə görə, bunun səbəbi təhlükəsizliklə bağlı ola bilər və Rusiyadan axın olması istisna edilmir. Onun fikrincə, quru sərhədlərin qapalı saxlanmasının pandemiya ilə əlaqələndirilməsinə inam qalmayıb:** “Əgər məsələ təhlükəsizlikdirsə, Rusiya-Ukrayna müharibəsidirsə, o zaman Gürcüstanın da Rusiya ilə sərhəd olduğunu nəzərə almalıyıq. Üstəlik, Gürcüstanın Cənubi Osetiya və Abxaziya kimi işğal problemi var, bununla belə, sərhəd açıqdır. Azərbaycan isə güclü dövlətdir, hüquq-mühafizə orqanları, ordusu, sərhəd xidməti peşəkardır, bu məsələdə Gürcüstandan dəfələrlə üstünük, o zaman Rusiya ilə quru sərhədi açıq saxlayıb, biz qapadırıqsa, heç də yaxşı görünmür”. **N.Cəfərli hesab edir ki, quru sərhədlərin bağlı saxlanması iqtisadi göstəricilərə də mənfi təsir edir:** “Ölkəyə 3 milyon turist gəlmişdi, indi onun 30-35 faizini təkrarlaya bilməyəcəyik”.

**Siyasi şərhçi Fuad Əliyev isə quru sərhədlərin açılmasını zəruri sayır:** “Bunun iqtisadi zərərləri göz qabağındadır. Artıq 4-cü ilə keçir ki, insanlar yalnız təyyarə ilə ölkə xaricinə çıxa bilirlər. Ən azından Gürcüstan istiqaməti açıla bilərdi ki, bu həm də Türkiyəyə quru sərhədin açılması deməkdir. Sadəcə, bunu etsələr, təbii olaraq suallar yaranacaq ki, şimal və cənub sərhədləri niyə açılmır, hansısa təhlükə varmı? Ona görə də ya hamısı açılmalıdır, ya da heç biri. Hökumət də ikinci variantı seçib. Amma koronavirusa yoluxma minimuma enib, dünyada bu xəstəliklə bağlı hər hansı qorxulu proses də getmir, o baxımdan burada siyasi və təhlükəsizlik amilləri axtarmaq mümkündür. Prezident "Bizə zərər vermək istəyənlərə bağlı qalsın" deməklə hansısa mesajı ötürmüş oldu. Görünür, dövlət başçısı kənardan Azərbaycana ziyan vurmaq istəyənlərin olduğunu görməkdədir".

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

# Lars yolu bağlandı

**Gürcüstanda hava şəraitinin pisləşməsi ilə əlaqədar Gürcüstan Hərbi Yolunun bir hissəsində ağır yük maşınlarının hərəkəti qadağan edilib. Bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyinin Şimali Osetiya üzrə Baş İdarəsi məlumat yayıb.**

“Gürcüstan ərazisində hava şəraitinin pisləşməsi və avtonəqliyyat vasitələrinin təhlükəsiz keçidinin təmin edilməsinin mümkünsüzlüyü, habelə Gürcüstan sərhəd polisinin tövsiyələri nəzərə alınmaqla Rusiya Federasiyasından Vladiqafqaz şəhəri - Lars qəsəbəsi istiqamətində yolun bir hissəsində irітutumlu avtomobillərin hərəkəti 12 dekabr saat 06:45-dən dayandırılıb”, - məlumatda deyilir.

Gürcüstan Hərbi Yolu Baş Qafqaz silsiləsi ilə Vladiqafqazdan Tiflisə aparır. Bu yol Rusiyanı Gürcüstan və qalan Transqafqaz ölkələri ilə birləşdirir. Yolun Rusiya hissəsində marşrut Şimali Osetiyadan keçir. Qışda hava şəraitinə görə yol tez-tez bağlanır.

# Hərbi prokuror “Tərtər işi”ndən danışdı

**Baş prokurorun müavini - hərbi prokuror Xanlar Vəliyev “Tərtər işi” üzrə istintaqdan danışıb. Bu barədə o, jurnalistlərə açıqlama verib. Xanlar Vəliyev işlə bağlı istintaqın davam etdiyini vurğulayıb.**

“İş Baş Prokurorluqda araşdırılır. Biz vaxtında istintaq apardıq, müəyyən işlər gördük, bir qismini də dayandırdıq. İndi Baş Prokurorluq "Tərtər işi"ni təzələyib və istintaq aparır". Hərbi prokuror bildirib ki, hər il 98-99 faiz hərbi cinayətlərin üstü açılır: “Ölüm hadisələri ilə bağlı baş verən cinayətlərin açılması faizi 100-dür. Tapşırıq vermişəm ki, hər bir ölüm halı ilə bağlı dərhal cinayət işi başlanılmalıdır”.

Qeyd edək ki, 2021-ci ilin dekabr ayında Baş Prokurorluqda “Tərtər işi” ilə bağlı cinayət işlərinin icraatının təzələnməsi ilə bağlı qərarlar qəbul edilib. İstintaq zamanı iş üzrə şübhəli bilinən şəxslər cinayət məsuliyyətinə cəlb olunub.

Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 126.3 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.3 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü və digər maddələri ilə ittiham olunurlar.

Onlar təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Prezident İlham Əliyev Serbiyaya işgüzar səfəri zamanı serbiyalı həmkarı Aleksandar Vuçiçlə bu ölkənin istehsal etdiyi hərbi texnika və avadanlıqlara baxıb. Bildirilir ki, hərbi aerodromda Serbiya Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələrinin silah və imkanlarının təqdimatı olub.**

# Serbiya bizə yeni silahlar təklif edir

## Vuçiç Belqrad və Bakı arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensial olduğunu, hətta birgə müdafiə sənayesi məhsullarının üçüncü ölkələrə satıla biləcəyini də deyib



Həmçinin pilotsuz uçuş aparatlarının, hava hücumundan müdafiə sistemlərinin, hava və quru döyüş platformalarının təqdimatı keçirilib, Paraşüt briqadası və digər xüsusi təyinatlı birləşmələr öz imkanlarını təqdim edib. Həmin mərasimdə həm Azərbaycanın, həm də Serbiyanın müdafiə nazirləri iştirak edib.

Serbiya Avropa ölkəsi olmasına baxmayaraq, keçmiş sosialist düşərgəsinə aid dövlət kimi bu məkanın hərbi sənaye məhsullarının istehsalçısı olaraq mühüm yerlərdən birini tutur. SSRİ-nin süqutundan sonra Şərqi Avropa ölkələrinin demək olar ki, hamısı sovet hərbi sənaye kompleksindən, yəni bu məhsulların istehsalından imtina etməyə başladı. Lakin Serbiya Rusiyanın siyasi müttəfiqi olaraq, əvvəllər təmsil olunduğu hərbi blokun silah-sursat məhsullarının istehsalını davam etdirdi. Həmçinin bu məhsulların uğurlu modernləşdirilmiş variantlarının yaradılması prosesini bu gün də davam etdirir.

Bu gün Serbiya müdafiə sənayesi kompleksi Qərb texnologiyalarını mənimsəyə bilib. Serbiya həm də müdafiə sənayesi sahəsində özəl sektorun formalaşdırılmasına da nail olub. Vuçiç çıxışlarının birində "bir neçə ildə Azərbaycana 10 dəfə artıq silah satmışıq", - deyə bəyan etmişdi. Vuçiç Belqrad və Bakı arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensial olduğunu, hətta birgə müdafiə sənayesi məhsullarının üçüncü ölkələrə satıla biləcəyini də deyib.

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə "Yeni Müsavat"a bildirdi ki, dünyada yaşanan qlobal geosiyasi dəyişikliklər Şərq və Qərb arasında xəritənin yeni konturlarının çizilməsi prosesi ilə həyata keçməkdədir:** "Burada xüsusilə Rusiya-Ukrayna müharibəsinin oynadığı mühüm rol qeyd edilə bilər. Tam da belə bir anda dövlətlər öz tərəfini seçməli, ya Avropa İttifaqı, ya da ABŞ və ümumi adı Qərb olan bloka sadiqlik nümayiş etdirməli, yaxud da Rusiya cəbhəsində yer almalıdır. Neytrallığını qorumaq hazırkı dövrdə hər dövlətə nəsib olmur. Bu baxımdan, həm Azərbaycan, həm də Serbiya unikallıq təşkil edir. Təsadüfi deyil ki, hər iki dövlət özünü Şərq və Qərb arasında geosiyasi əhəmiyyətli bağlayıcı mövqeyə sahib aktor hesab edir. Maraqlıdır ki, Azərbaycan kimi Serbiya da Rusiya ilə strateji əməkdaşlığı davam etdirsə də, Ukraynaya humanitar yardımlar göndərirlər, bu ölkələrin Avropa İttifaqı ilə ticarət dövriyyəsi Rusiya ilə müvafiq ticari dövriyyəsini üstələyir. Yəni bu iki unikal dövlət üçün Rusiya ilə strateji əməkdaşlıq Qərblə müxtəlif sferalarda əməkdaşlığa maneə törətmir. Serbiya özünün Avropa İttifaqına qatılmaq perspektivini və bu istiqamətdə çabalarını davam etdirir. Bununla yanaşı, Qərbdə hazırkı Serbiya hakimiyyəti rusiyayönümlü qəbul edilir. Bunun təbii ki, müxtəlif tarixi-siyasi əsasları var. Xüsusilə serblərin dini-ortodoks kimliyinin Rusiya ilə eyniliyi, Rusiyanın BMT Təhlükəsizlik Şurasında üzvlüyü və daima Serbiyanın maraqlarını qoruması (xüsusilə Kosovo məsələsində Avropa İttifaqı anti-Serbiya mövqeyinə sahibkən), Serbiyanın Rusiyadan enerji asılılığı (qazın 87%-i Rusiyadan təmin olunur), Rusiya ilə ciddi hərbi əməkdaşlıq vurğulana bilər. Bununla yanaşı, Serbiya-Azərbaycan arasında hərbi əməkdaşlıq dövlətlərarası münasibətləri yeni bir mərhələyə daşımaqla hər iki dövlətin Rusiyadan hərbi asılılığının azaldılması üçün yeni imkanlar yaradır. Serbiya "Global Firepower" reytinqində dünyanın 145 ölkəsi arasında 58-ci ölkə olaraq qeyd edilib. Müqayisə üçün, Azərbaycan 57-cidir. Yəni Azərbaycan hərbi güc baxımından Serbiyadan geri qalmır. Lakin Serbiyanın hərbi istehsalda müəyyən üstünlüyü var. Məsələn, Qərbi Balkanlarda müdafiə sənayesinə görə birinci yerdədir, 2018-ci ildə 897 milyon dollarlıq silah və hərbi sursat satışı həyata keçirib. Burada xüsusilə HHM, PUA və s. istehsalı xüsusi əhəmiyyət daşıyır ki, Azərbaycan hələ ki bu vasitələrə əsasən idxalçı ölkə sayılır. Azərbaycanın 2019-cu ildə 153,9 milyon dollarlıq silah və hərbi sursat satışı olub. Azərbaycanda hərbi istehsalın və ixracın həcmi, yerli silahların ixrac edildiyi ölkə sayı ilbəil artmaqdadır. 5 il öncə bu rəqəm 10 idisə, bu gün 30-dan çox ölkədən söhbət gedir. Bununla yanaşı, davamlı inkişaf etibarlı tərəfdaş tələb edir və Azərbaycan-Serbiya münasibətləri bu baxımdan unikallıq təşkil edir. Serbiya ilə hərbi sənayedə əməkdaşlığın inkişafı Azərbaycanın hərbi sənaye məhsullarını çeşidləndirməsinə və hərbi eksportu daha da artırmasına səbəb ola bilər".

**"Tərxis olunmuş hərbçilərin gəncləri maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli Serbiya ilə olan bu əməkdaşlığı çox vacib sayır**: "Azərbaycan bir çox ölkələrlə əməkdaşlıqda maraqlıdır, o cümlədən Avropa ölkəsi olan Serbiya ilə. Bu əlaqələr bir neçə baxımdan önəmlidir. Azərbaycanla əməkdaşlığı olan ölkələr Ermənistanla əməkdaşlıqda maraqlı olmurlar, bura Türkiyə, Pakistan, İsrail və dünyanın bir neçə ölkəsi daxildir. Azərbaycanın özü bu məsələləri təhlil edir. Hərbi məsələlər təhlili sevir. Ölkəmiz üçün hansı silahlar uyğundur, bunlar təhlil olunur. Müasir texnologiyaya aid silahlar alınır. Bu istiqamətdə Azərbaycan bütün məsələlərə xüsusi diqqət edir. İndiyə qədər aparılan siyasət Vətən müharibəsində və bir günlük lokal antiterror əməliyyatlarında onu göstərdi ki, Azərbaycan Ordusu özü-özünü təmin edə bilir. Yəni bu strategiya düzgün qurulub. Düzgün siyasət müəyyən edilməyəndə həm siyasi, həm də iqtisadi, həm insan resursları, həm də hərbi resurslar baxımdan böyük itkilərlə üz-üzə qalınır. Bəzən elə ola bilər ki, silah-sursat yetərincə ola bilər, amma vaxtı keçmiş silah-sursat ola bilər. Məhz Azərbaycan dövləti doğru-düzgün qərarlar verdiyi üçün qələbə əldə olundu. Hazırda ordumuz sürətlə türk modelinə keçir, sıx əməkdaşlıq var. İndi də Serbiya kimi dövlətlərlə olan sıx hərbi əməkdaşlıq çox vacibdir".

**Hərbi ekspert Səxavət Məmməd isə qeyd etdi ki, keçmiş sosialist düşərgəsinə aid olan Serbiya bu məkanın ən güclü hərbi sənaye məhsullarının istehsalçılarındandır. Azərbaycan Serbiyadan silah alıb, amma bu silahların hansı olduğu barədə rəsmi məlumat yoxdur:** "Tərəflər bu barədə rəsmi açıqlama verməyiblər. Azərbaycan Serbiyadan daha çox mərmilər, müəyyən texnikaların detallarını alıb. Bu da normal haldır. Çünki Azərbaycan Ordusunun arsenalında rus hərbi texnologiyası üstünlük təşkil edir. Serbiya silah sənayesi də rus-sovet hərbi texnologiyası üzərində qurulub. Serbiya minaatan sahəsində daha çox inkişaf edib. Serbiya minaatanları keyfiyyətinə görə ən yaxşılardandır. Azərbaycan tərəfinin Serbiyadan minaatanlar alacağı barədə informasiyalar yayılıb. Əgər bu gerçəkdirsə, çox uğurlu seçimdir. Düzdür, Serbiya ilə Ermənistan arasında da silah ticarəti olub. Məsələ ondadır ki, bu rəqəm milyon avrodan az olub. Yəni daha çox tapançalar, mərmilər və minaatanlar. Azərbaycanın ən çox silah aldığı ölkə isə İsraildir. Azərbaycan 2016-2020-ci illərdə silahlarının 69 faizini İsraildən alıb. İsrailin satdığı silahlar əsasən dronlar, ballistik raketlərdir. Rusiyadan alınan silahlar isə zirehli texnika və artilleriyadan ibarətdir".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**




## Türkiyənin "Kaan" döyüş təyyarəsi ilk uçuşa hazırlanır

**Türkiyə müdafiə və aviasiya tarixinin ən mühüm layihələrindən biri olan Milli Döyüş Təyyarəsi "Kaan"ın ilk uçuşu üçün geri sayım davam edir.**

Ordu.az xəbər verir ki, Türkiyə Aviasiya və Kosmos Sənayesi (TUSAŞ) baş direktoru Temel Kotil Milli Döyüş Təyyarəsi "Kaan" layihəsində son vəziyyətlə bağlı mühüm açıqlamalar verib.

Almaniyanın "Flug Revue" nəşrinə müsahibə verən Temel Kotil MMU "Kaan"ın ilk uçuşunun 2023-cü ilin sonunda reallaşacağını bir daha açıqlayıb.

MMU "Kaan" proqram prosesinə əsasən, ilk uçuş 2023-cü il dekabrın 27-də baş tutacaq.

Kotil proqrama əməl ediləcəyinə dair optimist olduğunu ifadə edib, 2023-cü ilin mayında keçirilən mərasimdə bütün statik sınaqlardan keçərək anqardan çıxan "Kaan"ın prototipi üçün uçuşa yararlı eniş dəstləri və uçuş idarəetmə kompüterinin inteqrasiya edilməsi fəaliyyətlərinin tamamlandığını bildirib.

MMU "Kaan"ın stels tipli döyüş təyyarəsi olacağını vurğulayan Kotil radar dalğalarını udmaq üçün TUSAŞ tərəfindən xüsusi bir örtük hazırladığını açıqlayıb.

O, xüsusi örtüyün sınaq mərhələsində olduğunu bildirib və əlavə edib ki, bu örtük ilk uçuşda yer almayacaq.

## "Songar" ilk sınaq atışını uğurla tamamlayıb




**"Sarsılmaz" və "Asisguard" arasında əməkdaşlıq çərçivəsində hazırlanan, 7.62 mm-lik silah daşıyan "Songar" zərbə tipli Pilotsuz Uçuş Aparatının (PUA) ilk sınaq atışı uğurla tamamlanıb.**

Ordu.az xəbər verir ki, Türkiyənin 7,62x39 mm çaplı yerli piyada tüfəngi SAR 15T yerli zərbə tipli PUA "Songar"a inteqrasiya edilib.

Daha öncə 5,56x45 mm çaplı tüfənglərin inteqrasiya edildiyi "Songar"da ilk dəfə bu çaplı silah quraşdırılıb.

5,56x45 mm ölçülü tüfənglərin atəş məsafəsi 100 metrdir və SAR 15T ilə 400 metrə qədər artırılacaq. Beləliklə, PUA-nın düşmən tərəfindən vurulma ehtimalı minimuma enəcək.

Yeni MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Brüsseldə Avropa İttifaqının (Aİ) "Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələrin xarici işlər nazirlərinin iclası keçirilib.**

# "Şərq Tərəfdaşlığı"nın uğursuz formulu: ya bizim, ya Rusiyanın yanında...

## Avropa İttifaqı bu proqramı hələ də "bizimlə olmayan bizə qarşıdır" məntiqi ilə davam etdirmək istəyir; 14 il əvvəl "ölü doğulmuş uşaq" adlandırılan layihə Rusiyaya qarşı plan idi, yoxsa...

Aİ-nin xarici işlər nazirlərinin 6 "Şərq Tərəfdaşlığı" ölkəsindən (Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova, Belarus) olan həmkarları ilə birgə iştirak edəcəkləri iclasda ittifaqın xarici siyasət idarəsinin rəhbəri Cozep Borrel sədrlik edib. Toplantıda Aİ-nin genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi də iştirak edib. Aİ Şurasının məlumatına görə, iclasda nazirlər "Şərq Tərəfdaşlığı", onun uğurlarına və gələcək siyasətinə dair konkret tövsiyələri müzakirə ediblər.

Yeri gəlmişkən, xarici işlər naziri Ceyhun Bayramov Brüsselə işgüzar səfəri çərçivəsində Aİ xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Jozep Borrellə görüşüb. Görüş zamanı "Şərq Tərəfdaşlığı" çərçivəsi də daxil olmaqla, Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli əlaqələr, habelə regiondakı cari vəziyyət müzakirə mövzusu olub. Görüşdə nazir Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə məlumat verib. Son etimad quruculuğu tədbirlərinin iki ölkə arasında normallaşma prosesinə müsbət təsiri qeyd edilib. Bayramov normallaşma prosesində Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçilik səylərinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyi bildirilib. Buna baxmayaraq, bəzi Avropa İttifaqı rəsmiləri tərəfindən verilən qərəzli bəyanatların sözügedən prosesdə Avropa İttifaqının qərəzsiz vasitəçi roluna xələl gətirdiyini də vurğulayıb.

Bildirək ki, 2009-cu ildə "Şərq Tərəfdaşlığı" proqramı irəli sürülərkən Aİ-nin sərhədləri yaxınlığında olan dövlətlərdə sabitliyin yaradılması, islahatlar və modernləşmənin aparılması, təhlükəsizliyin təmini, azad ticarət zonalarının yaradılması, viza rejiminin sadələşdirilməsi (və sonra ləğvi) kimi məqsədlər qarşıya qoyulurdu. "Şərq Tərəfdaşlığı" təşəbbüsü habelə Avropa İttifaqı və tərəfdaş ölkələr arasında assosiasiya ilə bağlı ikitərəfli anlaşmaların imzalanmasını da nəzərdə tuturdu. Lakin çox qısa müddətdən sonra "Şərq Tərəfdaşlığı"na üzv ölkələr süni dilemma qarşısında qoyuldu: onlar ya irəliyə, "Avropa İttifaqı ilə işıqlı gələcəyə" doğru getməli, ya da "geriləməli" idilər. "Geriləmək" dedikdə Rusiya ilə münasibətlərin mövcud səviyyədə saxlanması nəzərdə tutulurdu. Daha konkret olsaq, "Şərq Tərəfdaşlığı"na üzv ölkələrin istisnasız olaraq hamısından, o cümlədən Azərbaycandan belə mövqe tələb olundu. Tələbin məntiqsizliyi və zərərliyi bir kənara - qlobal siyasəti "ağ-qara" və "biz-onlar" tipli bölgüyə uyğunlaşdırmaq cəhdləri, "bizimlə olmayan bizə qarşıdır" məntiqi ilə davranmaq istəyi, sadəcə, yolverilməz idi. Azərbaycan belə absurd seçimi etmədi və əslində etmək niyyətində də deyildi. Çünki rəsmi Bakı qarşısında qoyulmuş şərt əslində ölkəmizin xarici siyasətinə kobud müdaxilə, dövlətimizə təzyiq cəhdi idi.

Təsadüfi deyil ki, Kreml bu vəziyyətə ciddi reaksiya verdi. "Şərq Tərəfdaşlığı"na həsr edilmiş 2009-cu il Praqa və 2010-cu il Varşava sammitlərində proqramın reallaşması istiqamətində yeni addımlar daha çox müzakirə edilirdisə və "Şərq Tərəfdaşlığı"nın məzmununda elə bir dəyişiklik nəzərdə tutulmurdusa, 2013-cü il Vilnüs sammiti çox şeyi dəyişdi. Vilnüsdə Ukrayna və Ermənistan assosiativ üzvlük haqqında müqaviləni imzalamadılar. Hətta Ermənistan Rusiyanın dominantlığı altında olan Avrasiya İqtisadi İttifaqı (AİI) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə (KTMT) yaxınlaşma və sıx tərəfdaşlıq xəttinin davam etdirilməsini zəruri saydı. Azərbaycan isə tam müstəqil mövqe tutaraq, ümumiyyətlə, assosiativ üzvlüyə mənfi münasibətini ifadə etdi. Beləliklə, 2013-cü ildə "Şərq Tərəfdaşlığı" proqramı ciddi siyasi zərbə aldı. Məlum oldu ki, proqrama daxil olan dövlətləri eyni qəlibə salmaq praktiki olaraq səmərəli deyil. Onda Aİ həmin proqramda tərəfdaş olan ölkələrə qarşı fərdi yanaşmaya üstünlük verməyə başladı. Sonradan Belarus, ümumiyyətlə, bu formatdan uzaqlaşdırıldı.

Dövlət başçısı İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı ilə bağlı qətiyyətli mövqeyi dəyişməzdir. Rəsmi Bakı Avropa İttifaqı ölkələri ilə strateji xarakter daşıyan və bərabərhüquqlu əməkdaşlığa əsaslanan əlaqələrin inkişafında maraqlıdır.

"Şərq Tərəfdaşlığı" gözləntiləri niyə doğrultmadı?



**Politoloq Tofiq Abbasov "Yeni Müsavat"a Avropa Birliyinin "Şərq Tərəfdaşlığı"nın GUAM-la oxşar tale yaşadıqlarını söylədi. Onun sözlərinə görə, ən çox canfəşanlıq edən Polşa, İsveç kimi ölkələr idi və onların qayəsi postsovet dövlətlərini Rusiyanın təsirindən çıxarmağa hesablanmışdı. T.Abbasov xatırlatdı ki, bir neçə il əvvəl Azərbaycan Prezidenti GUAM-ın iqtisadi əməkdaşlıq platformasına çevrilməsi təşəbbüsünü irəli sürmüşdü:** "Bu ideya qəbul olundu, amma fəaliyyəti olmadı. İndi də "Şərq Tərəfdaşlığı" proqramı bu cürdür. Onların məqsədi odur ki, bu dövlətlər Rusiya ilə münasibətləri korlasınlar, onların sözü ilə oturub-dursunlar, İranla əlaqələri məhdudlaşdırsınlar... Ukraynanın indiki şəraitini götürək. Hansı demokratiyadan, inkişafdan danışmaq olar? Onun evini yıxanlar elə Amerika, Avropa ölkələri oldu. Onlar istəyirdi ki, qonşusu ilə arasını vursunlar, bu arzularına da çatdılar. İndi 60 milyard dollar vəd verirlər, amma hələ Konqresdən keçirməyiblər".

**Aİ-nin dominant ölkəsinin Fransa olduğunu qeyd edən həmsöhbətimizin sözlərinə görə, Paris bir yandan Ermənistanı, bir tərəfdən Moldovanı silahlandırır:** "Onlar çalışırlar ki, Moldova Rusiyaya qarşı cəbhə açsın, sülhməramlıları çıxarsın. Mən bilmirəm bu yaxşıdır, ya yox, amma "Şərq Tərəfdaşlığı" proqramıdırsa, niyə silah-sursat verirsiniz, Rusiya ilə münasibətləri korlayırsınız? Azərbaycan bu mənada tarazlı siyasət aparır, kim maraqlarımıza uyğundursa, istənilən qütblə əməkdaşlıq edirik. Ancaq onlar tərəfdaşlıq adı ilə dövlətləri öz qonşuları ilə üz-göz edirlər. Nə olsun ki, siz böyüksünüz, nüfuzlusunuz, bizim də öz gücümüz var. Hətta yadımdadır ki, fındıq məhsulunu Avropa bazarına çıxarmalı idik. Sonra o qədər bəhanələr tapdılar, müxtəlif səbəblər göstərdilər ki, qarşısını alsınlar. Çünki Avropa bazarları doludur. Onlar öz maraqlarını böyük qısqanclıq və məkrlə güdürlər. Bir tərəfdən də selektiv yanaşma var. Misal üçün, Ermənistan torpağımızı işğal etmişdi, amma indi onlara vizanın sadələşdirilməsinə vəd verirlər, şərait yaradırlar. Xeyir ola, işğalçıya belə imtiyazlar verirsiniz, amma öz cibimizin xərci ilə onların dağıtdığı şəhərləri tikirik. Ona görə də əvvəldən "Şərq Tərəfdaşlığı" proqramı məsələsi səmimi olmayıb, təmənnalı və merkantil bir yanaşma nümayiş etdirilib. Azərbaycan Prezidenti də dedi ki, Avropa İttifaqı ilə sənədin imzalanması 90 faiz razılaşdırılıb, amma anlaşılmazlıq var, ona görə danışıqlar dayanıb. Odur ki, "Şərq Tərəfdaşlığı" proqramından yönlü bir nəticə gözləmirəm. O vaxt gurultulu səs effekti yarada bilərdi, indi səmərəsi yoxdur, mən yaxşı işartı görmürəm".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

## Ukrayna yaxın günlərdə Avropa İttifaqına üzv olmayacaq

**"Ukrayna yaxın günlərdə Avropa İttifaqına üzv olmayacaq". Bunu Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski jurnalistlərə deyib.**

Diplomat deyib ki, Ukrayna prezidenti Volodimir Zelenski dünən ABŞ-a səfər edib və ölkəsinin dəstəklənməsi üçün çox sayda əhəmiyyətli razılaşmalar əldə olunacaq:

"Paralel olaraq, Avropa İttifaqı çərçivəsində Brüsseldə tədbir keçirilir, Ukraynanın İttifaqa üzvlük məsələsi müzakirə edilir. Təbii ki, Aİ-yə üzvlük yaxın günlərdə baş verməyəcək, lakin gördüyünüz kimi, Ukrayna hərbi və siyasi cinahlardan irəliyə doğru gedir. Biz pozitiv ruha köklənmişik, haqq bizim tərəfimizdədir və bizə kömək edən dost ölkələr yanımızdadır", - diplomat əlavə edib.

## YUNESKO-da Azərbaycanın irəli sürdüyü qətnamə qəbul edildi

**YUNESKO mənzil qərargahında dekabrın 11-də Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması üzrə 1954-cü il Haaqa Konvensiyasına Tərəf Ölkələrin 15-ci görüşünün gündəliyinə Azərbaycan tərəfindən daxil edilmiş "Minaların mədəni irsə təsiri" mövzusunda qətnamə layihəsi Konvensiyaya 135 Tərəf Ölkənin yekdil qərarı ilə qəbul edilib.**

Bu barədə XİN-in məlumatında deyilir.

Qətnamədə silahlı münaqişələr və postmünaqişə dövrlərində mədəni mülkiyyətin (mədəni irsin) qorunması və mühafizəsi məqsədilə Üzv Dövlətlərin göstərdiyi səylər təqdir edilir, minaların və digər partlayıcı qurğuların beynəlxalq humanitar hüquqa zidd olaraq istifadəsinin mədəni mülkiyyətə əhəmiyyətli dərəcədə ziyan vura biləcəyi qeyd olunur.

Sənəddə minalar və digər partlayıcı qurğuların istifadəsinin mədəni mülkiyyətə qarşı ciddi təhlükə yaratması ilə bağlı narahatlıq ifadə olunur və 1954-cü il Haaqa Konvensiyasını pozan addımların atılmasının qarşısının alınmasının əhəmiyyəti vurğulanır.

YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023



# Gəlinliyə girişin əsasları

Zamin HACI
zaminhaci@gmail.com

**Kürdəmirdə 14 yaşlı şagirdi ərə vermək istəyirdilər, kamali-ədəblə nişan mərasimi olmuşdu, ancaq mərdimazarlar imkan vermədi, nahaq səs-küy saldılar, nəticədə dövlət idarələri araya girdi. Uşağın valideynlərinə xəbərdarlıq elədilər. Vəziyyət nəzarətə götürülmüşdür, nisbi sakitlikdir, insan tələfatı yoxdur, qoy millətdə ruh yaşasın! Yurdum, yuvam, ey əziz kəndimiz! Gözəl olur səndə yay, yaz, qış, toy-mağar...**

Burada bir neçə ciddi məsələ ortaya çıxmışdır və şərh zərurəti yaranmışdır.

Birincisi, müqəddəs dinimiz balaca uşaqları ərə verməyə icazə verir. Hətta verir. Məsələn, bir neçə il bundan əqdəm Səudiyyə Ərəbistanında 58 yaşlı erkəyi 6 yaşlı qız uşağıyla evləndirdilər. İranda da vaxtaşırı bu cür nikahlar baş tutur. İranda evlənmək işləri ümumiyyətlə sərbəstdir, buna Hollandiya-filan həsəd aparar. Təsəvvür elə, yarım saatlığına evlənməyə də icazə vardır. Sonra boşanırlar, hərə çıxır gedir işinin dalıyca.

Bizdə inqilabdan qabaq elənçik idi, lənətə gəlmiş Şura hökuməti qurulanda müəyyən qədər ara verilmişdi. Bu temada Mirzə Cəlilin "Bizim şeyxin 32 arvadı var" adlı maraqlı, triller üslubunda felyetonu var, orada şeyx kəndləri gəzir, hər kənddə qulunc olur, bunun belini ovxalamaq üçün balaca qızları siğə edirlər və sairə. Kim istəsə tapıb oxusun, ya da Netfliksə ötürün, kinosunu çəksinlər.

Yəqin kommunistlər balaca qızları pambıq yığımına basdıqları üçün ərə verilməklərini istəmirdilər, yoxsa orada başqa humanitar məna-zad yox idi. Tərbiyəsiz dövlət idi, arvadların başını necə açıbsa, 30 ildir bağlaya bilmirik. Ona görə qurban olduğumun lənətinə gəldi, cəmi 70 il yaşayandan sonra cəhənnəmə vasil oldu.

Qız uşağını göbəyi kəsilən kimi ərə vermək məqbuldur. Buna göbəkkəsmə üsulu deyilir. Yoxsa qaldıqca zayı çıxır. Əgər beşikdə imkan olmayıbsa, ulu dədələrimizin başqa maraqlı üsulu işə düşməlidir: qız uşağını papaqla vurursan, əgər yıxılmasa, deməli, ərə verilmək vaxtıdır. Əlbəttə, burada beysbol şapkasından, sombrerodan söhbət getmir, əsl kişi papaqları - qaragül, əmmamə, buxara, norka və sairədən danışırıq. Yoxsa çeçenka ilə uşağı səhərə qədər vur, yıxılmaz.

Yeri gəlmişkən, hörmətli oxucularımıza çox vacib bilgi verməliyəm. Qaragül papağı töklərinin qıvrımı açılmamış quzunun dərisindən hazırlanır. Bunun üçün hamilə qoyunu öldürürlər, qarnını yarıb quzunu çıxarırlar, dərisini soyurlar. Əks halda, qaragül papaq alınmır, qoyun yalayıb balasının töklərindəki qıvrımı açır. Başında belə tarixçəsi olan papaq gəzdirənlər, şübhəsiz, əsl ağsaqqal kimi yetişirlər.

İkincisi, guya o kürdəmirli balacanı ərə verməyə qoymadınız, böyük qəhrəmanlıq elədiniz, hə? Gedin o tərəfdə oynayın. Sizin o qızın gələcəyi üçün heç bir planınız, proqramınız yoxdur. Həmin qız 14 olmasın, 24 olsun, hansısa gicin birisini tapıb ərə gedəcək, ya evdə çuval kimi küncdə çürüyəcək, ya da tarlada beli əyri işləməkdən 30 yaşında 30 xəstəlik tapacaq. Ən pis halda gədə bunun üzərində vatsaplı telefon tapıb doğrayacaq. Azərbaycanda qız uşaqları, qadınlar ən alçaq, ən murdar işlərdə işlədilir və ən aşağı maaşı da onlara verirlər. Ən yaxşı halda dükanda 14 saat ayaq üstdə dayanıb aylıq 350 manat alırlar, harada işləsələr cürbəcür manyak müdirlərin seksual istismarına məruz qalırlar.

Qadına hörmətdən dəm vurursunuz, o zaman sayın görək neçə qadın nazir, icra başçısı var? Özü olmayıb adı olan özəl sektorda qadın başçıların payı, faizi nə qədərdir? Saymağınıza ehtiyac yoxdur. Sıfıra yaxındır.

İmkan verin camaat bildiyini eləsin. Onlar vəziyyəti yaxşı bilirlər.

**P.S.** *Səy-səy, mənasız, xeyirsiz dərsliklər əvəzinə də orta məktəblərdə "Gəlinliyin əsasları", "Ərə getmək qaydaları", "Toy gecəsi" kimi zəruri dərslər keçilsə yaxşı olar. Uşağa triqonometriya yox, qayınana ilə münasibətlər vacibdir.*



# "ASAN hakimiyyət" modeli - seçkidən sonra iqtidarda kimlər qalacaq?

## Gözlənilir ki, növbəti prezident seçkisində qalib gəlmiş İlham Əliyev fevralın 15-dək yeni komandanın tərkibini elan edəcək

**Siyasi analitiklər seçki tarixinin təxminən 1 il iki ay önə çəkilməsini ölkədəki yeni reallıqlarla əlaqələndirirlər. Ərazi bütövlüyünün və suverenliyin tam bərpa edilməsi həm Azərbaycanda, həm də ölkəmizin daxil olduğu regionda yeni durum yaradıb. Bu reallığa uyğun yeni siyasət yürüdülməsi tələb olunur.**

Prezident əslində Milli Qəhrəman kimi qəbul edildiyi zamanda seçkiyə gedir. Öz xalqından ən yüksək şəkildə "etibar səsi" gözləyir və bu, belə də olacaq. Üstəlik, zəfəri, yenilənməni, yeni çağırışları komandasında tətbiq etmək, "ASAN hakimiyyət" modelini formalaşdırmaq üçün hər şeyi öz seçkisi ilə başlayır.

Prezident Əliyev Azərbaycanla bağlı yeni mərhələyə məhz 2024-cü ilin fevralında start verəcək kimi görünür. O, vətəninin ən böyük problemini həll etdi, işğaldakı torpaqları qaytardı, Qarabağı düşməndən təmizlədi. İndi də Zəfərdən sonrakı yeni və yenilənmiş iqtidarla yeni Azərbaycanı inşa etməyə, daxili siyasi konfiqurasiyaları oturtmağa qərar verib. Millətimizə də fürsət yarandı: xalq öz gerçək milli qəhrəmanına təkrar güvən səsi vermək, ona təşəkkür etmək üçün prezident seçkisində Azərbaycan tarixində görünməmiş ən yüksək qatılımı və səsi tarixə yazacaq.

Prezident İlham Əliyev komandasını son bir neçə ildir ki, sürətlə yeniləməyə çalışır, illərlə eyni vəzifəni tutan yüksək çinli məmurlar bir-bir yola salınır. Hakimiyyət "köhnə"lərdən imtina edir və onları əsasən gənclərlə əvəzləyir.

Hakimiyyət texnoloqları hesab edir ki, son illər idarəetməyə həm yaxşı təhsilli gənc kadrlar gətirilir və üstəlik, onlar rüşvətə və korrupsiyaya bulaşmayıblar. Son illər yüksək vəzifələrə daha çox texnokratların, yeni kooperativ idarəetmə üsuluna bələd olan şəxslərin təyinatını müşahidə edirik. Təyin olunanların bir çoxu ya dövlət işində, ya da özəl sektorda özünü təsdiq etmiş şəxslərdir. Onlar həmin kooperativ idarəetmənin dövlət sisteminə tətbiqi ilə məşğuldur. Əvvəlki illərdə kadr islahatlarına qarşı dirənən, məsələn, Ramiz Mehdiyev zehniyyəti vardı. Amma Mehdiyev daha yoxdur. O səbəbdən gözlənilir ki, fevralın 15-dək artıq növbəti prezident seçkisində qalib gəlmiş İlham Əliyev yeni Nazirlər Kabinetinin tərkibini elan edəcək.

**Növbədənkənar prezident seçkisindən sonra kadr islahatlarının keçirilməsinin mümkünlüyünü hakim Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, deputat Hikmət Babaoğlu da anons edib. O bildirib ki, Azərbaycanda keçirilən islahatlar davamlı xarakter daşıyır və məntiqli əsaslarla aparılır. İctimai münasibətlərin zəruri etdiyi sahələrdə yenilənmə tələbi yarandığı təqdirdə bu baş verəcək:** "Proses həm də idarəetmənin təkmilləşdirilməsi, vətəndaşlara keyfiyyətli xidmət kontekstində icra edilir. Şübhəsiz ki, hazırkı mərhələdə və bundan sonra da idarəetmənin təkmilləşdirilməsi, kadr ehtiyatlarının yaxşılaşdırılması, vətəndaşa xidmətin yüksək səviyyədə edilməsi üçün islahatların keçirilməsi lazımdır. Cənab Prezident də ardıcıl olaraq bu sahədə yenilənmə həyata keçirir. İndiyə qədər idarəetməni nəzərə alsaq, seçkilərə qədər də, seçkilərdən sonra da idarəetmədə yenilənmə mümkündür. Ümumilikdə növbədənkənar Prezident seçkiləri ölkəmizin ictimai-siyasi mühitində yeni proseslərin start nöqtəsi ola bilər".

**AMİP sədri Arzuxan Əlizadə isə "Yeni Müsavat"a bildirdi ki, ümumiyyətlə, növbədənkənar prezident seçkisi elan olunmamışdan əvvəl də cəmiyyətdə ciddi siyasi islahatların vacibliyi fikri dominantlıq təşkil edirdi:** "Bu islahatların bir çoxu özündə konstitusiya dəyişikliklərini ehtiva etdiyi üçün referendum keçiriləcəyi ilə bağlı fikirlər də müzakirə mövzusu idi. Ancaq ilkin olaraq növbədənkənar prezident seçkisi elan olundu. Hesab edirəm ki, növbədənkənar prezident seçkisini şərtləndirən amillərdən biri də elə prezident seçkisindən sonra ciddi islahatlara gediləcəyidir. Xüsusilə də idarəetmə sahəsində bir sıra islahatlara gediləcək. Nazirlər Kabinetinin, ümumiyyətlə, buraxılması daha məntiqli olardı. Çünki vitse-prezidentlik institutunun olduğu ölkələrdə paralel olaraq Nazirlər Kabineti mövcud olmur. Ona görə də Nazirlər Kabinetinin buraxılaraq onun səlahiyyətlərinin vitse-prezidentlik institutuna verilməsi, eyni zamanda digər vitse-prezidentlərin də təyin edilərək bu institutun bir qədər də gücləndirilməsi gözləniləndir. Hesab edirəm ki, rayon icra hakimiyyətləri bir struktur vahidi olaraq ləğv oluna bilər. Əvəzində isə Prezidentin səlahiyyətli nümayəndəlikləri yaradıla bilər. Artıq bir müddətdir ki, işğaldan azad edilmiş rayonlarımıza Prezidentin səlahiyyətli nümayəndələri təyin edilib və onlar fəaliyyət göstərirlər. Bu təcrübənin bir qədər də genişləndirilməsi və bütün rayonlara tətbiq edilməsi gözləniləndir. Bunun anonsu da Azərbaycan Prezidenti tərəfindən verilib. Bizim də zamanında təkliflərimizdən biri bundan ibarət idi ki, ən azından Türkiyə idarəetmə üsuluna oxşar formaya keçilməsi zərurəti var. Prezidentin yerlərdəki nümayəndələri konstitusiya və qanunların icra edilməsinə nəzarəti həyata keçirir, Prezidentin verdiyi qərar və sərəncamların icrasını nəzarətdə saxlayır. Amma bütövlükdə yerli idarəçilik bələdiyyələrə verilir. Bununla əlaqədar bələdiyyələrin səlahiyyətlərinin bir qədər artırılması, yerli özünü idarəetmə orqanları olaraq yerlərdə idarəetmə səlahiyyətlərinin tam olaraq bələdiyyələrə verilməsi çox vacib şərtlərdən biridir. Bu, ölkənin idarəetməsində çox ciddi müsbət dəyişikliklərə səbəb ola bilər".

**A.Əlizadə qeyd etdi ki, bir sıra digər sahələr üzrə də dəyişikliklərin edilməsi, islahatlara gedilməsi vacibdir, gözləniləndir. Xüsusilə sosial-iqtisadi sahədə, məhkəmə-hüquq sistemində ciddi islahatlara gedilməsi lazımdır:** "Cəmiyyətin gözləntiləri var. Hesab edirəm ki, prezident seçkisindən sonra bu islahatlara gediləcək. Ehtiyac olacaqsa, referendum yolu ilə konstitusiyaya bir sıra əlavə və dəyişikliklər ediləcək. Artıq biz yeni idarəetmə formasına şahidlik edəcəyik".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Vaşinqton və Londonda danışıqlardan sonra Ermənistana qayıdan ölkənin Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycanla əldə olunan “görünməmiş” ikitərəfli razılaşma və yaxın gələcəkdə sülhün əldə olunması imkanlarından danışıb.**

# Sülh sazişinə bu qarant dövlətlər imza ata bilər - adlar

İki ölkə arasında razılaşmanın imzalanacağı təqdirdə onun təminatçısı hansı ölkələr ola bilər mövzusunda müzakirələr daha da aktuallaşıb; rəsmi İrəvanın son addımları sülh əldə olunacağına ümidləri artırıb, lakin...



“Yeni Müsavat”ın erməni mediasına istinadən verdiyi məlumata görə, Qriqoryan vurğulayıb ki, İrəvan həll yollarını axtarmağa və sülh müqaviləsinin hazırlanmasını başa çatdırmağa hazırdır. A.Qriqoryan bildirib ki, Ermənistan tərəfinin son təklifində sülh sazişinin təminatçıları institutunun yaradılması ilə bağlı təkliflər var. Belə görünür ki, Birləşmiş Ştatlar tezliklə, bəlkə də bu ilin sonuna qədər Ermənistan-Azərbaycan sülh sazişinin imzalanması üçün diplomatik səyləri gücləndirməkdədir. Bu səylərin bir hissəsi də ABŞ dövlət katibi Entoni Blinkenlə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub. “Amerika tərəfinə bildirdik ki, Türkiyə iki ölkə arasında sülh sazişini dəstəkləyir və sənədin imzalanması üçün əlindən gələni edir”, - Fidan qeyd edib. “Biz əminik ki, regionda normallaşma regionun özünün maraqlarına uyğundur” - türkiyəli diplomat bildirib.

ABŞ dövlət katibi E.Blinkenin Azərbaycan Prezidentinə zəngindən sonra Bakıya səfər edən dövlət katibinin müavini Ceyms O’Brayenin açıqlamasından da məlum oldu ki, görüşdə sülh prosesi əlahiddə müzakirə mövzusu olub. Hər halda, ABŞ-ın Vaşinqton prosesini davam etdirmək niyyəti sezilməkdədir. Artıq xəbər verildiyi kimi, ABŞ dövlət katibinin köməkçisi Ceyms O’Brayen Bakıya səfərindən sonra bildirib ki, Entoni Blinken yaxın vaxtlarda Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər rəhbərlərini qəbul etməyə ümid edir. Artıq Ermənistan tərəfi bu görüşdə iştirak etməyə hazır olduğunu bildirib. Azərbaycan tərəfinin rəsmi mövqeyi hələlik açıqlanmayıb. Qeyd edək ki, hazırda Bakıda erməni tərəfinin hazırladığı son layihə üzərində iş gedir. Onun müzakirəsi bir neçə gündən sonra Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündə baş tuta bilər. Yeri gəlmişkən, sülh müqaviləsi imzalanacağı təqdirdə onun təminatçısı hansı ölkələr ola bilər mövzusunda müzakirələr daha da aktuallaşıb. Bu sülhü Qərbin konkret ölkələri, yoxsa Armen Qriqoryanın dediyi kimi, “sülh sazişinin təminatçıları institutu”nun təmin edəcəyi hələ də bəlli deyil.

Nəzərə alsaq ki, son iki ildə Ermənistanla Azərbaycan arasında danışıqlar əsasən Brüssel və Vaşinqtonun ərazilərində aparılıb, belə bir qarant institutunun Qərb dövlətləri və strukturları əsasında formalaşmasını Ermənistan tərəfinin təklif etdiyini güman etmək olar. Rusiya faktoru nəzərə alınmadığı üçün bu, qeyri-real görünür. Bəzi dairələr, əgər İrəvan və Bakı qarşılıqlı təhlükəsizlik üçün beynəlxalq təminat tələb edərsə, bu təminatı iki NATO dövləti - Azərbaycan tərəfdən Türkiyə, Ermənistan tərəfdən Fransa öz üzərinə götürə bilər. Gürcüstan parlamentinin sədri də Tiflisin sülh sazişinə evsahibliyi etməsindən danışıb Bakı səfərində... Eyni zamanda Almaniya, ABŞ və Rusiyanın qarant ölkə kimi sülh sənədinə imza ata bilər. Bəs ekspertlərimiz necə düşünür, sülh sazişinin məkanı hara ola bilər? Ümumən sülh yaxındadırmı?

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl “Yeni Müsavat”a açıqlamasında Ağ Ev administrasiyasının bu məsələ ilə bağlı aktivliyinin artdığını vurğuladı:** “Doğrudan da Azərbaycan və Ermənistanın son günlərdə qarşılıqlı xoş məramlı addımları bölgədə geosiyasi maraqları olan qüvvələrin, konkret olaraq ABŞ-ın də iki ölkə arasında sülh müqaviləsinin imzalanmasını sürətləndirən diplomatik səylərini artırıb. Amma məsələ burasındadır ki, sülh müqaviləsi layihəsi yaxın vaxtlara tərəflər aralarında razılaşdırılsa belə, yekun sənədin imzalanmasına ciddi maneələr hələ də qalır. Söhbət təminatçı vasitəçilərdən gedir. Qərb platforması, qeyd edildiyi kimi, fəal diplomatik gedişlərlə sanki təşəbbüsü tam ələ almış kimi görünür. Ermənistanın da siyasi xətti əvvəldən məsələnin Qərb müstəvisində həll edilməsinə istiqamətlənib. Azərbaycan da Qərb platformasına normal yanaşıb, amma son antiterror əməliyyatından sonra Avropa İttifaqının, ABŞ-ın Azərbaycana qarşı haqsız ittihamları, yersiz şərtləri Qərbin ədalətli mövqe sərgiləyəcəyini şübhə altına aldı. ABŞ yanlış siyasətinin çox tez fərqində oldu və Azərbaycanla münasibətləri yumşaldan addımlar atdı”.

**Bəs ABŞ təkbaşına sülhün təminatçısı ola bilərmi?**

**İlham İsmayıl:** “Rusiya faktoru olmasaydı, bəlkə də... Qeyd etdiyiniz kimi, bu faktoru da nəzərə almadan sülh qeyri-real görünür. Rusiyanın diplomatik reaksiyası, açığı, Mariya Zaxarovanın brifinqlərdə Ermənistan rəhbərliyinin tənqidinə yönəlmiş açıqlamalarından, təzyiq reaksiyası isə Lars yolunda yaratdığı manevrlərdən artıq deyil, hələlik. Hesab edirəm ki, dekabrda Paşinyanın da iştirak edəcəyi Sankt-Peterburq görüşündə Putin mövqeyini bildirəcək. Əgər "xoşbəxtliyi Brüsseldə axtarmağın" zərərlərini sərtliklə, xəbərdarlıqla çatdıracaqsa, məsələ uzana bilər, çünki Ermənistan da asanlıqla bu vəziyyətlə razılaşmayacaq. Və Qriqoryanın söylədiyi “sülh təminatçıları institutu” ideyası o mənada cəlbedici görünə bilər ki, Rusiyanı qıcıqlandırmasın, çünki hiss olunur ki, bu ideya Qərbdən gəlir. Baş verəcəyi məkan isə böyük ehtimalla Gürcüstan ola bilər. Rusiyanın Ukrayna cəbhəsində uğura yaxın bir mərhələyə daxil olduğu barədə informasiyalar yayılır. Bu ərəfədə bəlkə də Rusiya bütün diqqətini Ukrayna ətrafında Qərblə dil tapmağa yönəldib, Gürcüstan variantına razılıq versin. Yəqin şərti də o ola bilər ki, “təminatçı institut”da o da təmsil olunsun. Amma bu variant sülhü uzada bilər”.

**Ekspertin sözlərinə görə, ən yaxşı platforma vasitəçisiz olaraq, tərəflərin öz aralarında sülh müqaviləsini Tiflisdə imzalamasıdır:** “Təminatçı mütləq şərt olarsa, şəxsi qənaətim odur ki, yalnız Böyük Britaniya bu rolu üzərinə götürə bilər və tərəflər də razı qala bilərlər”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, sülh sazişinin yerinə yetiriləcəyinə hansı dövlətin və ya dövlətlərin təminat verəcəyi ciddi məsələdir:** “Çünki Ermənistanda hakimiyyət dəyişərsə, yeni iqtidar Azərbaycanla imzalanan sülh sazişini yerinə yetirməkdən imtina edə bilər. Bu, Azərbaycanla Ermənistan arasında yeni müharibəyə səbəb olacaq və bu bölgədə sülh və əməkdaşlığa ağır zərbə olacaq. Ona görə də Prezident İlham Əliyev imzalanacaq sülh sazişinin yerinə yetirilməsinin təminatının vacib olduğunu bildirib. İlham Əliyevin digər haqlı tələbi ondan ibarətdir ki, əgər sülh sazişində ermənilərin Qarabağa qayıdışı məsələsi yer alacaqsa, sənəddə eynilə azərbaycanlıların da Ermənistana geri qayıdışı bəndi olmalıdır. Bu səbəbdən Ermənistanın baş naziri Nikol Paşinyan ermənilərin Qarabağa qayıdışı məsələsinin sülh sazişinə əlavə edilməsini istəmir. Çünki o, eyni zamanda azərbaycanlıların da Ermənistana qayıtmasını istəmir”.

**E.Şahinoğlunun fikrincə, təminatçı dövlətlər məsələsində digər mürəkkəblik ondadır ki, ABŞ və Avropa ölkələri Rusiya ilə birgə eyni masada oturaraq Azərbaycanla Ermənistan arasındakı sülh sazişinin ortaq təminatçısı olmaq istəməyəcəklər:** “Ona görə də təminatçı dövlətlər qismində ya yalnız Azərbaycana və Ermənistana qonşu olan, ya da neytral ölkələr çıxış etməlidirlər”. **Politoloq təsdiqləyir ki, sülh sazişinin harada imzalanacağı sualı da aktual məsələdir:** “Gürcüstan hakimiyyəti Azərbaycanla Ermənistan təmsilçilərinin Tiflisdə danışıqlar aparmasını və yekun sülh sazişinin Gürcüstan paytaxtında imzalanmasını istəyirlər. Bunu Bakıya səfər edərək Prezident İlham Əliyevlə görüşən Gürcüstan parlamentinin sədri bir daha təkrarladı. Sülh sazişinin Tiflisdə və ya Azərbaycanla Ermənistan arasındakı sərhəddə imzalanması optimal variantdır. Böyük dövlətlər bunun əleyhinə çıxmayacaqlar. Böyük dövlətlər Azərbaycanla Ermənistan arasında başlanan birbaşa danışıqları da dəstəklədilər. Bu sırada bir-biri ilə zidd mövqedə olan Rusiya, Fransa, ABŞ və İran da birbaşa danışıqları və əldə edilən razılaşmaları dəstəklədilər. Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların əleyhinə çıxmaq mümkün deyil, bu həmin dövlətin bölgədə sülh və əməkdaşlıqda maraqlı olmadığını göstərər. Ona görə də sülh sazişi məhz vasitəçiyə ehtiyac olmadan birbaşa danışıqlar nəticəsində əldə oluna bilər”.

Hələ ki ortada ənənəvi bəyanatlardan başqa real nəticələr yoxdur. Hərbi əsirlərin qarşılıqlı şəkildə qaytarılması və Azərbaycanın COP29 tədbirinə ev sahibliyi etməsi ilə bağlı təşəbbüsünün Ermənistan tərəfindən dəstəklənməsi, Bakının namizədliyinə “hə” deyilməsi müəyyən ümidlər yaratsa da, rəsmi İrəvanın siyasi iradə sahibi olmasına şübhələr prosesin rəvan gedəcəyinə inamı azaldır. Gözləyək...

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

## Qızılcaya görə məktəblər bağlanacaq? - nazir açıqladı



**Qızılcanın yayılmasında azalma var. "Trend" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.**

"Valideynlər övladlarını düzgün qaydada peyvəndləməlidir ki, bir daha belə hallar yaşanmasın. Hazırda bütün məktəblərin distant təhsilə keçməsi düşünülmür. Böyük qapanmalar olacağı ehtimal edilmir.

Ola bilər ki, yenə də ayrı-ayrı məktəblərdə və ya siniflərdə o hallar olsun. Bilirsiniz ki, bir məktəbdə belə hal olub. Hələlik riskli hallar müşahidə olunmur", - deyə nazir bildirib.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin məlumatına əsasən, son aylarda digər ölkələrdən gətirilmə hadisələrlə əlaqəli qızılcaya yoluxma halları Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yayılmasına səbəb olub. Ölkə ərazisində qeydə alınmış qızılca hadisələri arasında bəzən risk qrupuna aid uşaqlarda ağırlaşmalar, yanaşı bakterial infeksiyaların inkişafı, gecikmiş müraciətlər və ya yanlış diaqnostika hallarına rast gəlinir.

Uşaqların sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə ölkədə qüvvədə olan "Profilaktik peyvəndlər təqvimi"nə əsasən 1 və 6 yaşlarında olan bütün uşaqlar 2 dəfə qızılca, epidemik parotit və məxmərək infeksiyalarına qarşı vaksinasiya olunmalıdır.

## Zaqatalada çaqqal məktəblilərə hücum etdi



**Zaqatalada dərsə gedən iki şagird və daha üç nəfər çaqqal hücumuna məruz qalıb. APA xəbər verir ki, hadisə rayonun Muxax kəndində baş verib.**

Kənd sakinləri, Muxax kənd 2 saylı tam orta məktəbin şagirdləri - 2012-ci il təvəllüdlü Məryəm Çingiz qızı Mahmudova, 2012-ci il təvəllüdlü Röyal Rövşən oğlu Gəncəliyev dərsə gedən zaman yolda çaqqalın hücumuna məruz qalıblar. Çaqqal ərazidə olan daha üç nəfər kənd sakini - 1993-cü il təvəllüdlü Dilrubə Bayram qızı Tahirova, 1988-ci il təvəllüdlü Fatimə Zahid qızı Rəcəbova və 1986-cı il təvəllüdlü Leyla Şaban qızı Ömərovaya hücum edərək xəsarət yetirib.

Hər iki şagird və digər kənd sakinlərinə Zaqatala Rayon Mərkəzi Xəstəxanasında (RMX) mavafiq yardım göstərilib, quduzluq əleyhinə zərdab vurulduqdan sonra ambulator müalicə almaq şərti ilə evə buraxılıblar.

Qeyd edək ki, çaqqal sakinlər tərəfindən öldürülüb. Çaqqaldan kənd baytar həkimi tərəfindən laborator nümunə götürülüb.



# Baş nazirin son qərarı - Şeyxə etimad azalıb, yoxsa...

## QMI-nin dini təhsil sahəsindən tam uzaqlaşdırılması nə ilə bağlıdır?

**İlahiyyat İnstitutu publik hüquqi şəxsin yanında "Bakı İlahiyyat Kolleci" publik hüquqi şəxs yaradılması barədə xəbər vermişdik. Baş nazir Əli Əsədov müvafiq qərarı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək tapşırılıb.**

Qeyd edək ki, əvvəl QMİ nəzdində kolleclər (mədrəsə) fəaliyyət göstərəcəyi gündəmdə idi. Bildirilirdi ki, dini təhsil müəssisələri 2, yaxud 4 illik olacaq. QMI respublika üzrə 10-a yaxın kollec tipli təhsil müəssisəsinin açılmasını nəzərdə tuturdu. Daha sonra Dini Komitə bəyan etdi ki, bölgələrdə dini kolleclər yaradılacaq və İlahiyyat İnstitutunun bazasında fəaliyyət göstərəcək.

Yada salaq ki, QMİ-nin təsisçisi olduğu Bakı İslam Universiteti fəaliyyətini dayandırdıqdan sonra dini təhsil məsələsi Dini Komitənin nəzarəti altındadır. Məsələ ondadır ki, daha əvvəl dini təhsil müəssisələrini yaratmaq funksiyası QMİ-yə məxsus olub. QMİ illərlə özü kadr yetişdirmirdi, xaricdə dini təhsil almağa adamlar göndərirdi ki, bunun da bəzi ciddi fəsadları meydana çıxdı, hətta hökumət bu təhlükələri önləmək üçün Azərbaycandan kənarda dini təhsil alanlara qadağa tətbiq etməyə məcbur oldu.

Aydın oldu ki, QMİ yeni dini kadrlar yetişdirmək gücündə deyil. İndi Bakı İlahiyyat Kollecinin yaradılması da QMİ-nin dini təhsil sahəsində heç bir səlahiyyəti qalmadığını göstərir.

Şeyxülislam Allahşükür Paşazadəyə gəlincə, onun Azərbaycan hakimiyyəti yanında həmişə xüsusi çəkisi olub. Şeyxülislamın dövlət ərkanında səlahiyyətləri qalmaqdadır və ona xüsusi status tanınıb. Bundan başqa, Şeyxülislamın postsovet məkanında dini çevrələrə kifayət qədər təsir imkanları var.

QMI-nin dini təhsil sahəsindən tam uzaqlaşdırılması nə ilə bağlıdır ?

**Dini mövzularda ixtisaslaşan jurnalist Kənan Rövşənoğlu mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, kollec, yəni mədrəsə tipli təhsil müəssisələri daha əvvəl də mövcud olub, hazırda da mövcuddur:** "Azərbaycan müsəlman ölkəsidir, rəsmi olaraq ölkəmizdə 2200-dən çox məscid var, eyni zamanda dinlə əlaqədar elmi və tədris mərkəzləri var, bunları kadrla təmin etmək üçün yalnız İlahiyyat İnstitutu kifayət deyil, kolleclərin olması da lazımdır. Bu mənada zərurət var idi. Müəllim yoxdur fikri əsassızdır, Azərbaycanda həm ölkə daxilində, həm də xaricdə ali dini təhsil almış mütəxəssislər kifayət qədər var. BDU nəzdində İlahiyyat fakültəsi 1992-ci ildən fəaliyyət göstərir, dediyim kimi, həm yerli, həm də xaricdə təhsil almış kadrlar kifayət qədər var.

O ki qaldı QMİ ilə bağlı məsələyə, artıq çoxdandır ki, dövlət dini sahədə fəaliyyətləri öz üzərinə götürüb və komitə vasitəsilə bu fəaliyyətləri həyata keçirir. Bu da daxili və yerləşdiyimiz regionun xarakteri ilə bağlıdır. Bizim müsəlman ölkəsi olaraq dini fəaliyyətlərə daha çox diqqət ayırmağımız qaçılmaz idi. Dövlət gec də olsa bunu anladı və dini fəaliyyətlərə dövlət dəstəyi xəttini həyata keçirməyə başladı. İndi baxaq görək bu nə qədər peşəkarcasına və effektiv olacaq?"

**Dini məsələlər üzrə ekspert, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyətinin sədri Elçin Əsgərov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. O dedi ki, bu məsələ QMİ-nin nüfuzunu itirməsinə dəlalət etmir:** "Bu, sadəcə, dini sahə üzrə əsas səlahiyyətlərin qeyri-dövlət qurumundan alınıb dövlət qurumuna verilməsidir. "Dini etiqad azadlığı haqqında" Qanuna müvafiq olaraq dini təhsil müəssisələri yaratmaq yalnız QMİ-nin səlahiyyətində idi. QMİ nəzdində Bakı İslam Universiteti kimi ali dini təhsil müəssisəsi və bir neçə mədrəsə var idi. Ölkə başçısının sərəncamı ilə QMİ-yə 10 mədrəsə-kollec yaratmaq imkanı verilmişdi. Bunlardan yalnız bir neçəsi fəaliyyət göstərir, qalanları hələ maliyyə məsələlərinə görə yaradılmamışdı. Belə ki, kollecləri QMİ özü maliyyələşdirməli idi. Daha sonra bildiyiniz kimi, Dini Komitə nəzdində İlahiyyat İnstitutu yaradıldı və BİU ləğv olundu. Ümumən dini təhsilin Dini Komitəyə verilməsi başladı. BİU-nun problemlərindən biri həm də o idi ki, Elm və Təhsil Nazirliyi tərəfindən lisenziya almadığı üçün diplomlar da tanınmırdı. Yüzlərlə məzun son illər diplom ala bilməmişdi. Dövlət müəssisələrinin bir çoxu əvvəllər verilmiş BİU diplomlarını tanımırdı. İlahiyyat İnstitutunun yaradılması ilə bu problemlər də həll olundu".

**Elçin Əskərov həll olmayan bir başqa məsələyə də toxundu:** "O da odur ki, İlahiyyat İnstitutu akademik dinşünas və ilahiyyatçılar yetişdirir. O institutun bir çox məzunları sonradan gedib din xadimi kimi, dini ayin icraçısı kimi, adi molla kimi, aşağı kvalifikasiyalı dini işlər məsulu kimi işləmək istəmirlər, vəfat etmiş şəxslərə düzgün qüsl kəfən vermək, dəfn etmək və s. kimi işlərə getmirlər. Halbuki belə kadrlara ehtiyac daha çoxdur. Bu kadrları yetişdirmək üçün isə mədrəsə və kolleclərə ehtiyac var. İlahiyyat İnstitutu nəzdində kolleclərin yaradılması bu kadr boşluğunu da dolduracaq. Həmin kollec və kolleclərdə dərs deməyə isə kifayət qədər kadr var".

**Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib ki, Bakı İlahiyyat Kollecinə il ərzində 20-25 nəfərin qəbul edilməsi nəzərdə tutulub:** "Ümumiyyətlə, Azərbaycanda din sahəsində çalışan kadrların perspektivi nəzərə alınmalıdır. Yəni dini sahədə çoxlu kadr hazırlığı keçirsək, onların çalışdığı yerlər də mütləq olmalıdır. Bu mənada planlaşdırma olmalıdır", - o bildirib. Komitə sədri kollecin İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərəcəyini xatırladıb.

**Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov isə (Modern.az) bildirib ki, İlahiyyat Kollecinin yaradılması dövlətin keyfiyyətli dini təhsilə verdiyi əhəmiyyətin göstəricisidir:** "Kollec ilk növbədə İlahiyyat İnstitutu üçün baza olacaq. Kolleci bitirənlər dünyəvi fənlərlə yanaşı, dini biliklərə də yiyələnəcək və beləcə İlahiyyat İnstitutuna din elmləri sahəsində daha savadlı tələbələrin qəbulu baş verəcək. Gələcəkdə kollecdə təhsil alanların qida və yataqxana ehtiyaclarının da qarşılanması nəzərdə tutulur. Bu, din sahəsində təhsil almaq istəyənlərin başqa ölkələrə yönəlməsinin də qarşısını alacaq. Artıq öz ölkəmizdə din təhsili almaq üçün hər şərait mövcuddur.

Azərbaycan İlahiyyat İnstitutunda elmi əsaslarla ali din təhsili həyata keçirilir. Kollecin yaranması ilə belə tədris orta ixtisas səviyyəsində gerçəkləşəcək. Nəticədə dini tədrisdə ardıcıllıq təmin olunacaq. Kollecdə verilən təhsil institut təhsili ilə tamamlanacaq və bununla da ölkəmiz üçün din sahəsində daha savadlı kadrların hazırlanması təmin ediləcək. Kolleci bitirənlər məscidlərdə də çalışa biləcəklər".

**Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Azərbaycanda fəaliyyət göstərən tanınmış hüquq müdafiəçiləri - Novella Cəfəroğlu, Səidə Qocamanlı, Arzu Abdullayeva, Mirvari Qəhrəmanlı, Səadət Bənəniyarlı, eləcə də Mələhət Zeynallı, Zibeydə Sadıqova, Şəhla İsmayıl, Mehriban Zeynalova kimi tanınmış QHT təmsilçiləri Azərbaycan Prezidenti İlham Əliyevə 10 dekabr Beynəlxalq İnsan Haqları günü münasibətilə müraciət edib.**

# Hüquq müdafiəçilərinin müraciəti etirazla qarşılandı

## **Aydın Mirzəzadə:** "Müraciət edənlər özlərini prokuror kimi aparırlar"

## **Novella Cəfəroğlu:** "Çalışmalıyıq ki, xaricdən bizə söz gəlməsin, biz bunu çox istəyirik"

Müraciətdə deyilir ki, ölkədə gedən siyasi prosesləri diqqətlə izləyirlər, dövlət başçısının Qarabağ torpaqlarının işğaldan azad edilməsi sahəsində apardığı uğurlu siyasəti alqışlayırlar.

**Bütün bunlarla yanaşı, müraciət müəllifləri hazırda Azərbaycanda insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlı bəzi məqamları dövlət başçısının diqqətinə çatdırıb:** "Fərqindəyik ki, ölkədə baş verən elə hadisələr var ki, beynəlxalq imicimizə mənfi təsir göstərir. Xaricdə Azərbaycanın əleyhinə fəaliyyət göstərən bəzi qüvvələr bu hadisələri Azərbaycanda antidemokratik amillər kimi təqdim edir və ölkəmizi dünyanın ictimai rəyində gözdən salır".

Müraciət müəllifləri düşünür ki, "Xural" Media Qrupunun rəhbəri Əvəz Zeynallı, "Səda TV" internet kanalının əməkdaşı Elnur Şükürov, Kanal-13 youtube kanalının Bakı ofisinin rəhbəri Əziz Orucov, hüquq müdafiəçisi Bəxtiyar Hacıyev, Azərbaycan Demokratiya və Rifah Partiyasının təsisçisi və sədri Qubad İbadoğlu, blogerlər - Ülvü Həsənli, Sevinc Vaqifqızının həbsi narahatverici hadisələrdir.

"Düşünürük ki, qarşıdan gələn Dünya Azərbaycanlıların Həmrəylik Günü münasibətilə, eyni zamanda Prezident seçkiləri ərəfəsində Sizin bu şəxslərlə bağlı humanist addımınız, Azərbaycanın əleyhinə olan siyasi təxribatların və mənfi ideoloji təpkilərin qarşısını almaqla yanaşı, beynəlxalq və daxili imicinə də birbaşa müsbət təsir göstərə bilər. Bütün bunları nəzərə alaraq, Sizdən xahiş edirik ki, Azərbaycan dövlətinin hüquqi dövlət olduğunu bir daha gündəmə gətirərək, adları çəkilən və hazırda həbsdə saxlanılan ictimai-siyasi xadimlərə qarşı humanist addım atasınız və səlahiyyətlərinizdən istifadə edərək, onların azadlığa buraxılmasında yardımçı olasınız", - müraciətin sonunda deyilir.





**YAP-çı deputat Aydın Mirzəzadə dedi ki, bu müraciət daha çox siyasi ittiham xarakteri daşıyır:** "Məqsədli surətdə Azərbaycan üzərinə olmayan bir məsələləri yazmaq istəyirlər. Açığı deyim, biri var ki, dövlət başçısına kimlərinsə əfv edilməsi, yaxud onların məsələlərinə daha diqqətli baxılması xahişi ilə müraciət edəsən, biri də var ki, dövlət başçısına müraciət edib ölkəyə xaricdəki anti-Azərbaycan mərkəzləri kimi kölgə salmağa çalışasan. Necə yəni ölkədə gedən bəzi hadisələr ölkəmizə mənfi təsir edir? Hansı hadisələr ölkəmizin imicinə mənfi təsir edir? Necə yəni məhkəmələr bir çox hallarda mövcud qanunlardan sui-istifadə edirlər? Nə səbəbdən Azərbaycandakı məhkəmələri, ümumiyyətlə, qaralamağa çalışırlar? Şəxsi maraqlar naminə ölkədə ciddi problemlərə yol açılır? Bu nə cür iddialar, ittihamlardır? Müraciət edənlər özlərini prokuror kimi aparırlar. O ki qaldı həbsdə olan, istintaqları gedən, məhkəməsi olan şəxslərin azadlığa buraxılması ilə bağlı dövlət başçısına müraciət edilməsinə, nəzərdə tutmaq lazımdır ki, istintaqları aparılan, məhkəməsi olan insanlar əfv edilmirlər. Ancaq məhkəmə qərarı olan insanlar əfv edilir. Əgər bir şəxs istintaqa cəlb olunursa, istintaq getməlidir. Məhkəmə prosesi gedirsə, bu proses öncəliklə başa çatmalıdır. Bu proseslər başa çatandan sonra bütün vətəndaşlar kimi onların azadlığa buraxılması ilə bağlı məsələlərə qanunvericilik çərçivəsində baxıla bilər. Həmçinin nəzərə almaq lazımdır ki, Azərbaycanda il ərzində dəfələrlə cənab Prezident əfv sərəncamları imzalayıb. Çoxlu sayda insanlar vaxtından əvvəl azadlığa buraxılıb. Onların öz səhvlərini etiraf etmələri, cəzalarının bir hissəsini çəkmələri, azadlığa buraxıldıqdan sonra əvvəlki kimi cəmiyyət üçün problem yaratmayacaqları nəzərə alınır. Hesab edirəm ki, müraciətin də bir tonu olmalıdır. Təəssüf edirəm ki, bu müraciətdə siyasi ittihamlar, Azərbaycan adına ləkə gətirəcək ifadələr öz əksini tapır. Sonda qeyd edim ki, nəinki burada adları çəkilən, digər bütün məhbusların Allah qapısını açsın deyirəm".

**N.Cəfəroğlu müraciətləri barədə bir daha açıqlama verdi:** "Seçkiöncəsi istəyirik ki, ölkəmizdə sabitlik olsun. Bilirsiniz ki, hər ilin sonunda, yəni dekabrda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni illə əlaqədar əfv sərəncamının verilməsi üçün müraciətlər edirik. İndi də məqamdır. Qarşıdan prezident seçkisi gəlir. Bu aralarda millətin bir yerdə olmasına böyük ehtiyac var. Bu qədər əldə etdiyimiz nailiyyətlərdən sonra adları çəkilən şəxslərin həbsdə qalmaları heç də yaxşı hal olmazdı. Çünki xaricdəki anti-Azərbaycan dairələrin əlinə fürsət veririk. Düzdür, ölkə başçısı Azərbaycanı ittiham etmək istəyənləri yerlərində oturtdu. Amma yenə də siyasi motivli olan və həbsdə cəza çəkənlər barədə yazırlar. Seçki öncəsi hamımız həmrəy olmalıyıq. Ölkəmizdə reformalar olacaq. Bunun da ilk addımı kimi siyasi şəxslərin azad olunmaları olardı. Bizim xarici siyasətimiz çox mükəmməldir. Bir sözlə hər kəs tərəfindən müsbət qarşılanacaq dəyişikliklər olacaq. Çalışmalıyıq ki, xaricdən bizə söz gəlməsin. Biz bunu çox istəyirik".

**Hüquq müdafiəçisi müraciətləri ilə bağlı hələ ki bir yeniliyin olmadığını da söylədi:** "Müraciətimiz hələ ki yenidir. Hər halda, cavabları olacaq. Biz bilirik ki, o şəxslərin heç biri haqqında yekun məhkəmə qərarı yoxdur. Biz bilirik ki, barələrində məhkəmə qərarları olmayan şəxslər əfv siyahılarına salınmır. Sadəcə, biz onu çatdırırıq ki, məhkəmədən də azad edə bilərlər. Vacib deyil ki, məhkəmədən sonra əfv olsun. Prezidentin əfvetmə kimi müstəsna səlahiyyəti var. Mən demirəm ki, günahları var, ya yox. Bircə onu deyirəm ki, bizi xaricdən jurnalistlərin, siyasi şəxslərin həbsi ilə suçlamasınlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycanda prezident seçkisinin tarixi

## Prezident vəzifəsini tutmuş şəxslərin üçü dünyasını dəyişib



**7 fevral 2024-cü il seçkisi Azərbaycanda 10-cu prezident seçkisidır.**

Novator.az bildirir ki, ilk seçki 1990-cı il mayın 18-i parlamentdə keçirilib, Ayaz Mütəllibov prezident seçilib.

1991-ci il sentyabrın 8-də keçirilən ümumxalq səsverməsini də Ayaz Mütəllibov udub.

1992-ci il martın 6-da Ayaz Mütəllibov istefa verib, mayın 14-də parlamentin qərarı ilə vəzifəyə qaytarılıb, amma ertəsi gün yenə postunu itirib.

1992-ci il iyunun 7-də keçirilən seçkidə Əbülfəz Elçibəy qalib olub.

1993-cü il iyunun 17-də Əbülfəz Elçibəy hərbi qiyam səbəbindən paytaxt Bakını tərk edərək ata yurduna - Ordubadın Kələki kəndinə köçüb. İyunun 24-də Milli Məclisin qərarı ilə vəzifədən uzaqlaşdırılıb. Avqustun 29-da həmin qərar ümumxalq referendumunda təsdiqlənib.

1993-cü il oktyabrın 3-nə düşən seçkidə Heydər Əliyev prezident seçilib.

1998-ci ilin 11 oktyabrındakı seçkidə Heydər Əliyev postunu əlində saxlayıb.

2003-cü il oktyabrın 15-də, 2008-ci il oktyabrın 15-də İlham Əliyev prezident mandatı alıb.

2009-cu ildə eyni şəxsin ardıcıl iki dəfədən çox prezident seçilməsinə yasaq götürülüb. 2013-cü il oktyabrın 9-da İlham Əliyev yenə prezident seçilib.

2016-cı ildə prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə qaldırılıb və prezidentə növbədənkənar prezident seçkisi elan etmək hüququ verilib. 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar seçkidə İlham Əliyev qalib gəlib.

İlham Əliyev 2023-cü il dekabrın 7-də növbədənkənar prezident seçkisinə sərəncam verib. Seçki 2024-cü il fevralın 7-nə təyin olunub.

Azərbaycan Konstitusiyasına görə, ölkə ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququ olan, ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan vətəndaşı prezident seçilə bilər.

Prezidentliyə namizədin müdafiəsi üçün 40 mindən az olmayan sayda seçici imzası (60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza) toplanmalıdır. Bir seçici yalnız bir namizədin müdafiəsi üçün imza ata bilər.

Səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxunun səsini alan namizəd prezident seçilmiş sayılır.

Mərkəzi Seçki Komissiyası səsvermə günündən başlayaraq 10 gündən gec olmayan müddətdə prezident seçkisinə yekun vurur və nəticələrini təsdiq olunmaq üçün Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsinin bu haqda qərarı qətidir.

Prezident seçilmiş şəxs seçkinin yekunları haqqında məlumatın rəsmi elan olunduğu gündən başlayaraq 3 gün ərzində and içir.

Prezident vəzifəsini tutmuş şəxslərin 3-ü dünyasını dəyişib. Əbülfəz Elçibəy 2000-ci, Heydər Əliyev 2003-cü, Ayaz Mütəllibov 2022-ci ildə vəfat edib.

Yeni MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində iştirak edib. Dövlət başçısı mərasimdəki çıxışında Azərbaycanın Serbiya və Bolqarıstanla münasibətlərinin strateji əməkdaşlıq və dostluq prinsipləri əsasında inkişaf etdiyini bildirib. Onun sözlərinə görə, Azərbaycanın həm Serbiya, həm Bolqarıstanla əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Təsadüfi deyil ki, həm Serbiya, həm Bolqarıstan, həm Şərqi Avropa qrupuna daxil olan digər ölkələr Azərbaycanın namizədliyini dəstəkləyərək COP29 konfransının Azərbaycanda, Bakıda keçirilməsinə dəstək veriblər.**



# Doqquz ölkə oldu - Azərbaycan qaz ixracı coğrafiyasını genişləndirir

## Xarici nəşrlərin Azərbaycan qazının yetərli olmaması barədə iddiaları sırf siyasi məqsəd daşıyır və reallığı əks etdirmir

**İ.Əliyev Azərbaycanın öz öhdəliklərinə həmişə sadiq olduğunu qeyd edib:** "Keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum icra edilir. Bu memoranduma görə, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim Bolqarıstana qaz təchizatımız iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr qaz təchiz edilmişdir. Keçən il 500 milyon kubmetrdən bir qədər çox. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaqdır.

Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı-Tiflis-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır. Cənub Qaz Dəhlizi - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər".

Qeyd edək ki, Serbiya ilə Bolqarıstanın qaz şəbəkəsini birləşdirən interkonnektorun illik ötürücülük gücü 1,8 milyard kubmetrdir. Bu, Serbiyanın illik qaz tələbatının 60 faizi deməkdir. Serbiya ilə Azərbaycan arasında imzalanmış sazişə əsasən 2024-cü ildən etibarən Azərbaycan Serbiyaya ildə 400 milyon kubmetr qaz çatdıracaq. İnterkonnektor Bolqarıstan vasitəsilə Serbiyanın Yunanıstan ərazisindəki maye qaz terminallarına çıxışını da təmin edir ki, bu da ölkənin Rusiyadan olan qaz asılılığını ciddi şəkildə azaltmasına imkan verəcək.

Şərqi Avropanın qaz şəbəkəsinin Bolqarıstan üzərindən Yunanıstan və Türkiyə qaz şəbəkələri ilə əlaqələndirilməsi ideyası Azərbaycan qazını Bolqarıstana çatdıran İGB adlı interkonnektorun tikintisi zamanı yaranıb. İGB 2022-ci il oktyabrın 1-də Bolqarıstanda Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin də daxil olduğu yüksək səviyyəli şəxslərin iştirak etdiyi tarixi mərasimdə fəaliyyətə başlayıb. İnterkonnektor ildə 3 milyard kub metr daşımaq qabiliyyətinə malikdir. Bu miqdarın yarısının 25 ilə qədər uzunmüddətli müqavilələr əsasında daşınması planlaşdırılır. Yunanıstanın Komotini və Bolqarıstanın Stara-Zaqora şəhərlərini birləşdirən 93 mil uzunluğundakı boru kəməri Komotinidə 2024-cü ilə qədər tamamlanacaq kompressor stansiyasının tikintisindən və Aleksandropolis yaxınlığında yeni mayeləşdirilmiş təbii qaz terminalının (TQT) istifadəyə verilməsindən sonra həcmi ildə 5 milyard kubmetrə qədər artırmaq potensialına malikdir. Hazırda Azərbaycan qazı Bolqarıstanın ümumi tələbatının 27 faizini ödəyir. IGB-nin isə illik ötürücülük gücü artıq 2025-ci ildə indiki 3 milyard kubmetrdən 5 milyard kubmetrə qədər artırıla bilər. Belə ki, Bolqarıstan mətbuatının yazdığına görə, qaz kəmərinin ötürücülük qabiliyyətinin genişləndirilməsinə bu ilin yayından başlanılıb. Prosesin yekunlaşdırılması istiqamətində növbəti addımlar ICGB tərəfindən qonşu ötürücü sistem operatorları ilə razılaşdırılaraq həyata keçirilir.

Xatırladaq ki, Bolqarıstanın "Bulgargaz" şirkəti "Şahdəniz-2" layihəsi çərçivəsində "Şahdəniz" konsorsiumu ilə ildə 1 milyard kubmetr qazın nəqli ilə bağlı müqavilə imzalayıb.

2020-ci ilin 31 dekabrından Azərbaycan qazı Avropadakı istehlakçılara çatdırılır. Öncə Yunanıstan, İtaliya, sonra isə Bolqarıstan, Rumıniya Azərbaycandan qaz aldı. Bu ilin sonunadək Macarıstan, 2024-cü ildən isə Serbiya da Azərbaycan qazının alıcısı olacaq. İyun ayında SOCAR-la Macarıstanın ən böyük təbii qaz topdansatış şirkəti olan "MVM CE-Energy Zrt." arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə imzalanıb.

Azərbaycan Avropa İttifaqı ilə imzaladığı sazişə əməl etmək üçün qaz hasilatını ildən-ilə artırır. Hesablama Palatasının Dövlət Neft Fondunun 2024-cü il büdcəsinin layihəsinə rəyindən aydın olur ki, gələn il "Şahdəniz" qaz-kondensat yatağından 26,1 milyard kubmetr qaz hasil olunacağı gözlənilir, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 3,16 faiz çoxdur. Sənədə əsasən, bu il "Şahdəniz"də 25,3 milyard kubmetr qaz hasil olunacaq. Ötən il bu göstərici 24 milyard kubmetr təşkil edib.

2023-cü ilin yayından hasilatın başlandığı "Abşeron" qaz-kondesat yatağından qaz hasilatının 2024-cü ildə 1,5 milyard kubmetrə yaxın olacağı gözlənilir.

2024-cü il üçün Fondun büdcəsinin baza göstəricisi olan 1 barel neftin orta illik ixrac qiyməti növbəti il üçün 60,0 ABŞ dolları, qazın Avropa Hub qiyməti 1000 kub metr üçün 511,0 ABŞ dolları (BP tərəfindən təqdim edilən məlumata əsasən) həcmində götürülüb.

2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda 40,1 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 10,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən, 21,8 milyard kubmetri "Şahdəniz"dən, 0,5 milyard kubmetri "Abşeron"dan, 7,1 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 4,2 faiz, yəni 1,6 milyard kubmetr artımla qaz hasil edilib.

Hesabat dövründə xaricə qaz satışı 19,8 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz çoxdur. Cari ilin yanvar-oktyabr aylarında Avropaya 9,8 milyard kubmetr, Türkiyəyə 8,1 milyard kubmetr, Gürcüstana isə 1,9 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la 4,7 milyard kubmetr qaz nəql olunub.

Qeyd edək ki, son aylarda bir sıra xarici nəşrlərdə Azərbaycanla bağlı qeyri-real iddialar yer alır. Bəzi mənbələr Azərbaycanın qaz ehtiyatlarının, hasilat potensialının Avropaya vəd olunan qaz həcmlərini çatdırmaq üçün yetərli olmadığını, buna görə Rusiyadan qazı alaraq Avropaya satmağa çalışdığını iddia edirlər.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın "Yeni Müsavat"a dediyinə görə, indiyədək Azərbaycanın neft-qaz sahəsində öhdəsindən gələ bilməyəcəyi vədləri üzərinə götürməsi halı olmayıb:** "Bu il Azərbaycan iki ölkədən qaz alır: Rusiya və Türkmənistandan. Türkmənistandan qazı İran üzərindən və öz daxili ehtiyaclarımız üçün alırıq, ildə təxminən 1 milyard kubmetr həcm alınır. Rusiyadan isə svopla 1,5 milyard kubmetr alırıq, bunun 500 milyon kubmetrini geri - Dağıstana qaytarırıq. Nəzərə alsaq ki, bu il bizim qaz ixracımız 24 milyard kubmetri keçəcək, onda 2 milyard kubmetrin kiçik bir rəqəm olduğunu deyə bilərik. Azərbaycanda resursların işlənməsi, hasilat sürətləndikcə, bu həcmlərə də ehtiyac qalmayacaq. Eyni vəziyyət elektrik enerjisi ilə bağlı da var: biz hazırda 3 milyard kVt saat enerji ixrac edirik, haradasa 200 milyon kVt/saat alırıq. Bu o demək deyil ki, bizim enerji istehsalımız tələbatımızı ödəməyə çatmır?"

**Ekspert bildirir ki, Avropadakı alıcıları qazla təmin etmək üçün əsas baza "Abşeron" yatağının ikinci mərhələsidir:** "Bu mərhələdə yataqdan hasilat təxminən 6 milyard kubmetr və daha çox olacaq. Bundan əlavə, bizim digər resursumuz "Azəri-Çıraq-Günəşli" yatağının dərin qatlarıdır ki, oradan ildə 2 milyard kubmetr civarında hasilat gözlənilir. "Ümid" yatağından hasilat isə 3 milyard kubmetrə qədər artacaq. Ötən il bu yataqda 1,7 milyard kubmetr qaz əldə edilib, bu il isə 2 milyard kubmetrdən yuxarı hasilat olub. Energetika Nazirliyinin proqnozlarına əsaslansaq, illik qaz hasilatı 2022-ci ildəki 36 milyard kubmetrdən 2030-cu ildə 45 milyard kubmetrə qədər artacaq. Bu həcmə nail olmaq çox realdır, çünki yataqlar işlənir, zəruri sərmayələr qoyulur. Bu fonda xarici nəşrlərin Azərbaycan qazının yetərli olmaması barədə iddiaları sırf siyasi məqsəd daşıyır və reallığı əks etdirmir. Bizim yeganə problemimiz ondadır ki, mövcud istehsal potensialımızı dünyaya təqdim etmək, uğurlu təbliğat qurmağı bacarmırıq".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**




# Pandemiya cərimələri seçkiyədək silinə bilər-iddia

## Ekspertlər hesab edir ki, cərimələrin ləğvi ədalətli qərar olardı

**Azərbaycanda 2020-ci ilin martından koronavirus səbəbilə elan edilən xüsusi karantin rejimi aprel ayının 2-dək davam edəcək. Həmin tarixdən sonra karantin rejiminin uzadılması hələlik məlum deyil. Rejim tam ləğv edilməsə də, infeksiyanın çox yayıldığı zaman xeyli sayda insanın cərimələnməsinə səbəb olan maska və digər qadağalar götürülüb.**

Xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə keçirilən tədbirlər zamanı qaydalara uymayan vətəndaşlar cərimələnib. Lakin ümumilikdə nə qədər insanın cərimələndiyi, nə qədərinin cəriməni ödədiyi və borclu qaldığı haqda statistika yoxdur. Rəqəmlər məlum olmasa belə, hələ də sosial şəbəkələrdə cərimələrin ləğvi, məbləği barədə müzakirələr gedir.

Yada salaq ki, Azərbaycanda karantin rejiminin tətbiqi ilə bağlı ilk qərar 2020-ci il martın 24-də verilib. Həmin ilin iyun ayının əvvəlində həm açıq, həm də qapalı məkanlarda maska taxmaq məcburi elan olunub, bu qaydanı pozanları isə cərimələyiblər. Sonra cərimələrin məbləği iki dəfə artırılıb. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə əsasən, karantin rejimində maska taxmaq tələbini pozmağa görə fiziki şəxslər üçün nəzərdə tutulan cərimə 50 manatdan 100 manata, vəzifəli şəxslər üçün cərimə 100 manatdan 200 manata, hüquqi şəxslər üçün cərimə isə 200 manatdan 400 manata artırılıb.

Hələ də cərimə olunan və bunu ödəməyənlər cərimənin hansı halda silinməsinin mümkünlüyü ilə bağlı suallara cavab axtarırlar. Xüsusilə qonşu ölkələr, Gürcüstan və Türkiyə cərimələrin ləğvi və ödənilən cərimələrin məbləğinin geri qaytarılması haqqında qərar qəbul etdikdən sonra ölkədə buna ümid edənlərin sayı artıb.

Belə ki, Türkiyə Konstitusiya Məhkəməsi bir neçə ay öncə koronavirus pandemiyası zamanı karantin rejimi qaydalarını pozduqlarına görə ölkə vətəndaşlarına cərimə kimi ödədikləri pulların geri qaytarılmasına qərar verib. Pandemiya zamanı cərimələnən vətəndaşlar pullarının geri qaytarılması üçün müraciət edə biləcəklər. Yəni 11 mart 2020-ci il tarixindən 9 noyabr 2022-ci il tarixədək ödənilmiş bütün məbləğlər geri qaytarılacaq, ödənilməmiş cərimələr isə avtomatik olaraq ləğv ediləcək. Pandemiya borclarını silən və cərimələrin məbləğini vətəndaşlarına qaytarmağa qərar verən növbəti ölkə olan qonşu Gürcüstan olub. Bu addım ölkə vətəndaşları tərəfindən siyasi müdriklik aktı kimi qiymətləndirilib.

Maskasız, SMS icazə olmadan çölə çıxanların cərimələri hansı halda bağışlana bilər? Cəriməni ödəyənlərin ödədiyi məbləğ geri qaytarıla bilərmi?

**Mövzu ilə bağlı Bizim.media-ya danışan deputat Razi Nurullayev cərimələrin ləğvinin tərəfdarıdır:** "Buna hökumət, Milli Məclis səviyyəsində qərar verilə bilər. Gürcüstanda bu məsələ qaldırıldı və parlament səviyyəsində həll olundu. Hesab edirəm ki, Azərbaycanda da məsələyə diqqətlə yanaşılmalı və həll olunmalıdır. Doğrudur, o vaxt kimlərsə cərimə olundu, amma dövlətin məqsədi insanları cərimələmək, insanların cibinə girmək deyildi. Məqsəd insanları məsuliyyətli olmağa dəvət etmək idi. Bu baxımdan, düşünürəm ki, bu cərimələr ləğv olunmalıdır. Bunun necə olacağını deyə bilmərəm. Amma bu məsələnin ciddi şəkildə həllinin tərəfdarıyam".

**Milli Məclisin üzvü cərimələrin geri qaytarılmasında Türkiyə təcrübəsindən istifadə edilməsini doğru hesab edir:** "Cərimələrin geri qaytarılması ilə bağlı Türkiyədə təcrübə varsa və ölkəmizdə də bu, həyata keçirilərsə, təbii ki, vətəndaşlarımız çox razı qalar. Mən istəyərdim ki, olsun. Nə qədər mümkündür, mümkün deyil, gərək bununla bağlı əlaqədar orqanlar qərar versin. Amma niyə mümkün deyil ki? Həyatda mümkün olmayan nə isə varmı?! Hər şey mümkündür. Ən azından hələ ki ödənilməyən cərimələrin ləğv olunması ilə bağlı bir qərar lazımdır. Kimlərsə də ödəyibsə, onlara haqsızlıq olmasın deyə, həmin şəxslərin cərimələrinin geri qaytarılması gözəl bir addım olar". Belə iddialar var ki, pandemiya cərimələri seçkiyədək silinə də bilər.

**İqtisadçı-ekspert Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, Azərbaycanda pandemiya zamanı yazılan cərimələrin ləğvi çox ədalətli qərar olardı:** "İndi də məlum olur ki, o zaman da həm dünyada, həm də Azərbaycanda bu qadağaların və laktdaunların ləğv edilməsi xəstəliyə qarşı heç bir effekt verməmişdi. Hətta belə bir elmi araşdırmalar da var. Bir çox ölkələr də bunu əsas gətirərək bu cərimələrin böyük bir hissəsini ləğv etdi. Parlament ayrıca qanun qəbul edir, qanun nəticəsində cərimələr silinir. Nazirlər Kabinetinin xüsusi qərarı ilə bu mümkündür. Bu yanaşma qəbul olunsa, çox ədalətli olardı".

**İqtisadçı millət vəkili Azər Badamov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. O dedi ki, karantin cərimələri ləğv edilsə, çox yaxşı olar:** "Məhz dövlətin gördüyü təxirəsalınmaz tədbirlər sayəsində Azərbaycan dünyada pandemiyaya qarşı ən yaxşı mübarizə aparan ölkələrin sırasına daxil oldu. Bu gün isə demək olar ki, pandemiya başa çatıb. Amma pandemiya ilə bağlı tələbləri pozduğuna görə tətbiq olunmuş cərimələrin taleyi insanları narahat edir. Belə bir qərarın ölkəmizdə də qəbulu yaxşı hal olardı. Çünki bu cərimələrin tətbiqi pandemiyaya qarşı mübarizədə vətəndaşların məsuliyyətini artırmaq məqsədi daşıyırdı. Ona görə də hesab edirəm ki, cərimələnmiş vətəndaşlarla bağlı icra olunmamış qərarlar da ləğv olunmalıdır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# 150 min turist Azərbaycandan narazı qayıdıb-ilginc

## Narazılıq daha çox restoranların xidmətindən və nəqliyyatdandır



**Yanvar-oktyabr aylarında turizm məqsədilə Azərbaycana gələn 1,2 milyon nəfər turistin 150 mini və ya hər 8 turistdən biri ona göstərilən xidmətlərin hansındansa narazı qalıb. "Yeni Müsavat" bu barədə Dövlət Statistika Komitəsinin hesabatına istinadən xəbər verir. Xatırladaq ki, ilk 10 ayda xaricdən ölkəyə 1 milyon 169 min nəfər səfər edib.**

Narazı turistlərin sayı ötən ilin eyni dövrünə nisbətən 27 min nəfər və ya 21,9% çoxdur. 2022-ci ilin 10 ayında ölkəyə gələn turistlərin 123 mini xidmətdən narazı qalmışdı.

Rəsmi məlumatlara görə, turistlərin narazı qaldığı sahələrin siyahısına restoran və avtobus daşımaları başçılıq edir.

Belə ki, turistlərin 32,5 min nəfəri restoranların xidmətindən, 32,1 min nəfəri avtobusla sərnişin daşımadan, 18,4 min nəfəri taksi xidmətindən, 17,4 min nəfəri bələdçi xidmətindən məmnun olmayanlardır.

Bundan başqa, 13,6 min nəfər hotellərin xidmətindən, 8,9 min nəfər metrodan, 5,3 min nəfər turagentlərin xidmətindən razı qalmayıb.

Bəs səbəb nədir?

**Deputat, iqtisadçı alim Vüqar Bayramov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Bütövlükdə turizm sektorunun keyfiyyətinin artırılması kifayət qədər vacib məsələdir. Nəzərə alsaq ki, son illər bu sahədə müəyyən addımlar atılsa da yenə də turizm xidmətində keyfiyyət yüksək deyil. Qeyd olunan sorğu da onu göstərir ki, bu istiqamətdə işlərin genişləndirilməsi və xüsusən də keyfiyyətin artırılması ilə bağlı daha sistemli fəaliyyətlərin həyata keçirilməsinə ehtiyac var.

Təbii ki, burada turistlərin rəyi fərqli səbəblərə söykənir. Amma həm ictimai nəqliyyatda keyfiyyətin artırılması, həm metro və avtobusların vaxtının tənzimlənməsi və qrafikə uyğun həyata keçirilməsi çox vacibdir. Turistlər üçün ictimai nəqliyyatda qrafik çox önəmlidir. Bunun reallaşması həm də paytaxtda turistlərin ictimai nəqliyyatdan sıx istifadə etməsinə gətirib çıxara bilər.

Restoranlarda keyfiyyət məsələsi çox önəmlidir və bu istiqamətdə həm paytaxtda, həm də bölgələrdə daha real işlərin görülməsinə, keyfiyyətə nəzarət mexanizminin formalaşmasına ehtiyac var. Çünki turistlər üçün keyfiyyət çox önəmlidir və bu baxımdan növbəti mərhələdə keyfiyyətin artırılması ilə bağlı işlərin daha sistemli və eyni zamanda ünvanlı şəkildə həyata keçirilməsinə ehtiyac var".

**Turizm eksperti Ceyhun Aşurov qeyd edib ki, gediş-gəlişin, turistlərin olduğu yerlərdə mütləq hansısa narazılıqlar, şikayətlər ola bilər:** "Amma sənayenin, hansısa turizm müəssisəsinin, eləcə də ölkəmizin hədəfi gələn turistlərin məmnunluğunu artırmaq, mövcud narazılıqları mümkün qədər azaltmaqdır.

Bəs bunun üçün daha nələr etmək olar? Bu sorğudan da görünür ki, daha çox insan, yəni təxminən 8 turistdən biri hansısa xidmətdən narazı qalıb və burada daha çox restoran, ictimai nəqliyyat xidmətindən narazılıq var. Bu həm də onu göstərir ki, turizm kompleks şəklində bir çox sahələri əhatə edir. Turizm təkcə turizm sahəsində çalışanların işi deyil, burada həm də cəmiyyətin, ölkənin, iqtisadiyyatın digər sahələrinin də payı var.

Ona görə də keyfiyyətin yüksəldilməsi, məmnuniyyətin artırılması üçün daim işlər aparılmalıdır. Hesab edirəm ki, bununla bağlı işlər gedir, lakin bu faisələsiz şəkildə davam etməli, müxtəlif təlimlər, seminarlar təşkil olunmalıdır. Medianın da bu sahədə ciddi təsirləri var. Cəmiyyət də buna hazır olmalıdır. Beləliklə, həm infrastruktur, həm də loqistik cəhətdən restoranlar, hotellər təkmilləşdirilməlidir, qonaq məmnuniyyətini yüksək saxlaya bilək".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, turizm sektoruna münasibət dəyişməlidir:** "Yeni bu cür münasibətlə ölkədə turizmi aparıcı sahəyə çevirmək mümkün deyil, halbuki Azərbaycanın çox ciddi turizm potensialı var. Məsələn, ölkədə quru sərhədləri bağlı saxlamaqla və yaxud rəqabətsizlik mühitində turizmi inkişaf etdirmək mümkün deyil. Əgər kafe və restoranlardan şikayətlər varsa, demək ki, rəqabət zəifdir. Əgər rəqabət zəifdirsə, hökumət müvafiq işlər görməlidir.

Beləliklə, turizm məmnuniyyətini qazanmaq üçün ölkədə quru sərhədləri açmaq və daha rəqabətlilik mühiti yaratmaq lazımdır. Pandemiyadan əvvəl, 2019-cu ildə ölkəmiz 3 milyon turist qəbul etmişdisə, indi heç onun yarısı qədər ölkəyə turist gəlmir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 224 (8360) 13 dekabr 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Tiktokerlər gənclərə nümunə ola bilməz

## Ekspert deyir ki, gənclərin intellektual səviyyəsinin artırılması yönündə proqramlar hazırlanmalıdır

**Son vaxtlar "TikTok" sosial şəbəkə platformasında gəncləri, yeniyetmələri müəyyən pis vərdişlərə təhrik edən, onların düşüncələrinə mənfi təsir edən videoların paylaşılması ilə bağlı narazılıq var.**

Qeyd olunur ki, bu platforma açıq şəkildə əxlaqi dəyərləri aşındıran neqativ davranışların virtual məkanına çevrilib.

Bəzi istifadəçilər son dərəcə vulqar, jarqon sözlərdən, söyüşlərdən, təhqirlərdən istifadə edir, başqalarını aşağılamağa çalışır. Hətta bu platformada qadın alveri açıq formada həyata keçirilir. Belə ki, yüngül həyat tərzi yaşayan xanımlar bu platformada öz hesabları vasitəsilə hansı qiymətə görüşəcəklərini elan edir və sairə.

Azərbaycanda bu platformadan istifadə edənlərin sayı dəqiq bilinməsə də, 1 milyondan çox olduğu təxmin edilir. İstifadəçilərin əksəriyyəti 24 yaşa qədər olan uşaq və gənclərdir. Bu baxımdan, "TikTok"un bağlanması və yaxud aidiyyəti qurumlar tərəfindən bu platformaya məhdudiyyətlərin tətbiq olunması, nəzarətin gücləndirilməsi ilə bağlı təkliflər səslənir.

Lakin bir sıra mütəxəssislər qeyd edir ki, hansısa platformanın bağlanması, məhdudiyyətlərin tətbiq olunması insanların daxilində emosiyaların daha sərt formada qalmasına gətirib çıxarır. Buna görə də daha çox gənclərin, yeniyetmələrin intellektual səviyyəsinin artırılması yönündə proqramların yaradılmasına ehtiyac var.

**Mövzu ilə bağlı sosioloq Lalə Mehralı "Yeni Müsavat"a danışıb:** "Məlum məsələdir ki, bir çox "TikTok" istifadəçiləri bu platformada aktivlik nümayiş etdirərək, reklam, qazanc əldə edir, daha sonra özünün lüks həyatını nümayiş etdirir. Birdən-birə varlanmaq arzusunda olan bəzi yeniyetmə və gənclər də onların davranışlarını təqlid etməyə, özünü onlara bənzətməyə çalışırlar. Düşünürlər ki, bu cür yolla məşhurluq qazanmaq, ondan gəlir əldə etmək daha asan və yaxşıdır.




Ən pisi budur ki, bəzi telekanallar tiktokerləri ekspert qismində efirə dəvət edir, onları müzakirələrə cəlb edir, tövsiyələrini dinləyirlər. Yəni ağır səslənsə də, həmin tiktokerlərin həyasızlığını nümayiş etdirir, sanki onların önəmli olduğunu önə çəkirlər. İnsanların da beyinlərinə yürüdürlər ki, tiktoker olsan hər kəs səni tanıyacaq, yaxşı pul qazanacaqsan, yaxşı yaşayacaqsan və sairə. Efirdə milyonların gözü önündə bu cür insanları piar edəndə təbii ki, gənclər, yeniyetmələr bunu artıq normal hal kimi qəbul edəcək.

Ümumiyyətlə, "TikTok" sosial şəbəkəsi yaradılanda digər platformalar kimi formalaşdırılıb. Lakin zamanla funksiyalar daha əlçatan, məşhurlaşma imkanı əlverişli olduğuna görə insanlar daha çox bu platformada toplaşıblar və əhatəsini də ona uyğun tənzimləyiblər. Məsələn, "TikTok"da elmi, informasiya, tibb kanalları və yaxud normal reklamlar nümayiş etdirən və ondan qazanc əldə edənlər də var. Sadəcə, qeyd etdiyim kimi, kim necədirsə, ətrafına da o cür insanlar toplayır. Məsələn, istifadəçinin baxdığı səhifələrə uyğun ona təkliflər gəlir. Bu funksiya digər sosial şəbəkələrdə də var.

İndiki yeniyetmələr və yaxud uşaqlara "bu pisdir, buna baxmayın və yaxud istifadə etməyin" deyə qadağalar, məhdudiyyətlər qoymaq çox çətindir, bəzən mümkünsüzdür. Çünki qadağalar qoyulsa belə, yeniyetmə və yaxud uşaqlar maraq göstərdiyi internet resurslarına, sosial şəbəkələrə müxtəlif yollarla giriş imkanı əldə edə bilirlər. Bu o deməkdir ki, biz qadağalar, məhdudiyyətlərdənsə, uşaqların, yeniyetmə və gənclərin maraq dairələrini dəyişdirməli, onların intellektual səviyyələrini artırmaq üçün tədbirlər görməliyik. Gənc, yeniyetmə nə görürsə, onu təqlid edir. Bu baxımdan, telekanalların təsir imkanlarından istifadə etmək lazımdır. Bu gün telekanallarda uşaqlar, yeniyetmələr, eləcə də gənclər üçün verilişlər çox azdır. Əvvəllər efirlərdə intellektual yarışlı verilişlər var idi və kiçikdən tutmuş böyüklərə qədər hər kəs o verilişləri böyük maraqla izləyirdi. Çox təəssüf ki, son illər bu cür verilişlər efirlərdən yığışdırılıb. Televiziyalar indi onlara reytinq gətirən proqramlar hazırlayırlar. Bunlar da ki, əsasən ailə-məişət mövzusunda olan tok-şoulardır. Nəticədə efirlərə maraq azalıb və yeniyetmələr, gənclər daha çox internet resurslarından informasiya almağa çalışırlar.

Hesab edirəm ki, yeniyetmə və gənclərimizin əxlaqını, tərbiyəsini nəzərə alaraq, yeni mədəni-maarif verilişləri, proqramlar hazırlanmalıdır. Həmin proqramları da maraqlı, müasir dövrə uyğun hazırlamaq lazımdır ki, maraq doğura bilsin.

Həmçinin "TikTok"da reytinq xətrinə başqalarını təhqir edən, söyüşlər səsləndirən, qışqıran-bağıran, mentalitetimizə, adət-ənənəmizə zidd olan davranışlar nümayiş etdirən şəxsləri efirlərə dəvət etmək yolverilməzdir. Yalnız normal düşüncələrə malik, cəmiyyətə faydalı tövsiyələr verə bilən ədəbli şəxsləri efirə çıxartmaq lazımdır, nəinki cəmiyyətimizin, gəncliyimizin tərbiyəsini təhdid edənləri..."

Azərbaycan Respublikasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Xalìdə GƏRAY




# "Trendyol"a xərclənən pullar itirilir?

**""Trendyol" vasitəsilə Türkiyə iqtisadiyyatına bizdən Bakı-Ceyhan boyda kanal açılıb. Adamlar rəsmən "Trendyol" aludəçisi olub. İmkan oldu-olmadı sərhəd qoyulan məbləği doldururlar. Qadınlar "Trendyol"la yaşayır. Vəziyyət getdikcə bəla halını alır".**

Bakupost.az xəbər verir ki, bunu sosial şəbəkədə yazışı İlham Əziz yazıb.

O, "Trendyol"a xərclənən pulların itirildiyini bildirib: "Deyə bilərsiz ucuzdur. Xub, amma və lakin biz yeyişimizi-geyişimizi bilməyən adamlarıq. Oradakı parıltılar, fotoeffektlər bizi tez aldadır. Lazım oldu-olmadı hər şeyi alırıq. Bu, yatırım deyil, itirilən puldur. Elə-belə pul deyil, milyon dollarlardır. Guya iki ay "Trendyol"dan bir şey almasaq geyinməyə bir şey tapmayacağıq? Yalandı, puçdu".

İ.Əziz ailələrin durmadan kasıblaşdığını, pul itirdiyini bildirib:

"Başqa ölkələr kimi bizə banklar içində 5-10 min manatlıq kredit kartları paylasalar, ev-eşiyimizdən olarıq. Təklifim budur ki, "Trendyol"dan alış-veriş icazəsini ildə 1-2 aya salmaq lazımdır. Sənə hər fəsilə aid bir dəfə alış-veriş lazımdı, hər ay nə alırsan axı? Bu nə bədxərclikdi, bu nə axmaqlıqdı? Ailələr çətin maddi duruma düşəcək, vallah, məndən demək... Nəfsinizə sahib çıxın"...

# İzmirdə Türk Balkan Media Forumu keçirildi

**Türkiyənin İzmir şəhərində Türk Balkan Media Forumu baş tutub.**




Bakupost.az xəbər verir ki, Türk İnternet Media Birliyi (TİMBİR) və Balkan Stratejik Araşdırmalar Mərkəzinin (BASAM) təşkilatçılığı ilə baş tutan forum ölkənin Daxili İşlər Nazirliyinin İctimaiyyətlə Əlaqələr Baş İdarəsinin dəstəyi ilə keçirilib.Foruma İzmir vilayət rəhbəri Süleyman Əlban, Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin regional şöbəsinin rəhbəri Çingiz Qutlu, TİMBİR sədri Süleyman Basa, BASAM rəhbəri Rifat Səid, Azərbaycan Mətbuat Şurasının və TİMBİR-in İdarə Heyətinin üzvü, "Yeni Çağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər, "Diaspor" İnformasiya Mərkəzinin sədri Toğrul Allahverdili və 12 ölkədən yüzə yaxın media mənsubu qatılıb.

Forumu açıq elan edən TİMBİR sədri Süleyman Basa Türk Balkan Media Birliyi Platformasının qurulması ilə bağlı qərar verdiklərini bildirib. Türk dünyasının media birliyinə diqqət çəkən Süleyman Basa Azərbaycana səfərindən və burada keçirdiyi görüşlərdən xüsusilə bəhs edib. O, Vətən müharibəsinin media birliyinin zəruriliyini ortaya qoyduğunu qeyd edib. Forumda çıxış edən "Yeni Çağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər türk dövlətləri arasında media sahəsində əməkdaşlıqla yanaşı, birlikdə hərəkət etmənin önəmini vurğulayıb. Noyabrda İstanbulda Türk Xəbər Agentlikləri Media Zirvə görüşünün keçirildiyini xatırladan Aqil Ələsgər burada Türk Xəbər Agentlikləri Alyansının yaradılması qərarının qəbul edilməsinin türk dövlətlərinin mətbuat tarixində yeni mərhələ başlatdığını qeyd edib. Azərbaycan İkinci Qarabağ müharibəsində informasiya sahəsində də savaşdığını bildirən media qrup rəhbəri Türk Balkan Media Birliyi Platormasının qurulması qərarının başda Azərbaycan olmaqla, beynəlxalq qurumlar tərəfindən qaralama kampaniyası yürüdülən ölkələrin haqq səsini dünyaya çatdırmaq üçün önəmli konsepsiya olduğunu vurğulayıb. Digər çıxışçılar da türk dövlətləri mətbuatı arasındakı əlaqələrin inkişaf etdirilməsi, informasiya sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi, dezinformasiyaya qarşı savaşda birliyin təmin edilməsi kimi məsələlər ətrafında fikirlərini səsləndirib, təkliflər irəli sürüblər.

Forum ümumi müzakirələrdən sonra xatirə fotosunun çəkdirilməsi ilə başa çatıb.

# Laçının qardaşı - Zabux...

## Ermənistanla sərhəddə mərdi-mərdanə dayanan Zabuxdan reportaj

**Vətən üçün ölə bilərik, lakin bu torpaqlarda yaşayıb-yaratmaq bizlərin və gələcək nəsillərin ən böyük mənəvi borcudur. Bu düşüncə ilə Laçın şəhərindən Zabux kəndinə səfərimi planlamaq üçün kəndin sakini Bəkir kişiyə zəng edirəm.**

- Bəkir dayı, salam!

- Salam, qızım!

- Bəkir dayı, əgər kənddəsinizsə, Zabuxa gəlmək istəyirəm.

- Gəlin, qonşularla sizi Zabux çayının kənarındakı parkda gözləyəcəyik.

- Görüşənədək...("Report")

Laçının dumanlı dağları ilə əhatələnmiş yolla Zabuxa doğru irəliləyirik. Təxminən 15 dəqiqə sonra dağların ardından Zabux kəndi görünür. Zabux çayı üzərində salınmış körpünü keçəndə Bəkir dayı və kəndin digər sakinlərindən bir qisminin bizimlə görüş üçün toplandığını görürük. Yaxınlaşıb hal-əhval soruşaraq söhbətə başlayırıq. Zabux kəndi, bu kənd ətrafında baş verən hadisələr və kəndə yenidən köçlə bağlı söhbətləşirik. Sonra kəndi gəzmək üçün onlarla müvəqqəti sağollaşırıq.

İlk baş çəkdiyimiz ünvan kəndin yeni salınan məktəbidir. Bizi məktəbin direktoru **Mübariz Rüstəmov** qarşılayır. Bildirir ki, məktəb yaxın günlərdə fəaliyyətə başlayacaq, 180 yerlik təhsil ocağında 35 şagird təhsil alacaq.

**O qeyd edir ki, işğaldan öncə də bu məktəbdə tarix müəllimi kimi fəaliyyət göstərib:** "O zaman Azərbaycanda hakimiyyətsizlik, bir-birini tanımamaq cəhdi, hərbi birliklər arasında təxribatçılıq kimi amillər torpaqlarımızın işğalı ilə nəticələndi. Həmin dövrdə camaatdan hətta ov tüfəngləri də yığışdırılmışdı. Əhalini "burada geniş manevrlər ediləcək" adı ilə avtobuslarla kənddən çıxardılar. Elə həmin dövrdə Laçındakı ərazi müdafiə batalyonu da geri çağırıldı və ordu başlı-başına qaldı. Beləliklə, Laçın işğal edildi".

**Direktor Vətən müharibəsindən sonra Zabux kəndinin işğaldan azad edilməsi xəbərinin zabuxlularda böyük sevincə səbəb olduğunu deyir:** "31 il yaşadığım qaçqınlıq dövrünü yuxu kimi xatırlayıram. Bu hissləri qaçqınlığı yaşayan insanlar daha yaxşı başa düşə bilər. Bərdədəki dostlarım onlarla gec-gec zəngləşdiyim üçün məni vəfasızlıqda günahlandırırlar. Lakin hərdən elə düşünürəm ki, bu, belə də olmalıdır. Çünki fikrimcə, ötən 31 il xatırlanmamalı yuxu idi".

Mübariz müəllim bizi məktəblə tanış etmək istədiyini deyir və məmnuniyyətlə təhsil ocağını, sinif otaqlarını, laboratoriyaları gəzməyə başlayırıq.

Məktəbin həyətindən Zabux kəndi və kəndi ikiyə bölən Zabux çayı aydın görünür. Müasir avadanlıqlarla təchiz olunmuş məktəbdə yeqin ki şagirdlərin darıxmaq üçün vaxtı olmayacaq deyə düşünürəm.

Məktəbdən çıxıb öncədən tanış olduğumuz Bəkir kişi ilə onun evinə gedərkən müharibə zamanı insanların sığınmaq üçün üz tutduqları köhnə anbarı göstərərək kəndi necə müdafiə etdiklərindən və buranı necə tərk etməyə məcbur qaldıqlarından bəhs edir. Anbarın yanı ilə irəlilədiyimiz vaxt danışılanlar 90-cı illərdə baş verən qanlı-qadalı günləri təsəvvürümdə canlandırır. Belə söhbətlər zamanı "Bu cür faciə mənim başıma gəlsəydi, nə edərdim?" sualını istənilən adam özünə verə bilər...

Düşüncələri beynimdən qovub qapıda bizi qarşılayan Təzəgül xanımla görüşürük. Bəkir dayının ömür-gün yoldaşıdır, məktəbdə müəllimədir. 33 yaşında üç övladı ilə birgə kəndi tərk etmək məcburiyyətində qalıb. Zabuxdan Laçın şəhərinə, oradan Bərdəyə, daha sonra isə Bakıya üz tutublar. Həmin illərdən danışarkən səsi titrəməyə başlayır. Təzəgül xanımın ağlamağını istəmirəm, çünki günlərdir eşitdiklərimin təsiri ilə hisslərimi gizlədə bilməyəcəyimdən narahatam. Və budur, hər ikimizin göz yaşları sözümüzə baxmır...

**Bir qədər fasilədən sonra dərin nəfəs alıb sözünə davam edir:** "Uşaqlar körpə idi, əlacsız kəndi tərk etmək məcburiyyətində qaldıq. Bakıda bizə qaynım kömək etdi. O, Bakıda neftayırma zavodunda işləyirdi. Buranın kollektivi bizimlə yanaşı, 30-40 ailəyə qalmaq üçün yer və qidalanmaq üçün yemək verdi. İşğal illəri ərzində, Zabuxa qayıdana kimi orada yaşadıq. Zabuxa qayıdanda ilk vaxtlar ürəyimizdə bir qədər qorxu var idi. 30 il əvvəl yaşadıqlarımız bizi psixoloji olaraq sarsıtmışdı".

**Bu zaman Bəkir dayı söhbətə qoşulur:** "Qızım, Zabuxa ilk köçdüyümüz vaxtlar qadınlarda bir qədər narahatlıq olduğunu hiss etdim. Zabux Ermənistanla sərhəd kənddir, burada dağlardan baxanda ermənilərin yaşadıqları kəndlər görünür. Əsgərlərimizə baş çəkmək qərarına gəldim və bunun üçün sərhədə getdim. Orada müşahidə etdiyim mənzərə ürəyimi dağa döndərdi. Azərbaycan Ordusunun qüdrəti, çevikliyi, mərdliyi və sayıqlığından duyduğum qürurla kəndə geri qayıtdım. Gördüklərimi insanlara danışdım və bildirdim ki, bu cür qüdrətli ordusu olan dövlətin vətəndaşı təhlükəsizliyinə görə narahatlıq keçirməməlidir".

Təzəgül xanım da elə bu hadisədən sonra narahatlığının keçdiyini deyir.

**Bəkir dayı və Təzəgül xanımla vidalaşıb qonşuları Elbrus kişini elə həyətdəcə söhbətə tuturuq. Zabuxun işğaldan azad olunduğu anın sevincindən ağızdolusu danışır:** "Kəndimi heç Moskvaya da dəyişmərəm. Doğma kəndimə qayıdıb gözəlliklər görmüşəm. Başqa nə istəyə bilərəm bu həyatdan?!"

Elbrus dayının evi Zabux çayının yaxınlığındadır. Çayın səsi insana psixoloji terapiya təsiri bağışlayır. Kəndi bir qədər gəzdikdən sonra Bakıya qayıtmaq üçün avtomobilimizə tərəf yollanırıq. Yolboyu Bəkir dayının əsgərlərimizlə bağlı söylədiyi fikirlər dolaşır beynimdə. Bu dəm sərhədçilərimizi qürurla salamlamaq, vətəni onlara, onları isə Allaha əmanət etmək keçir könlümdən...

❑ **"Yeni Müsavat"**











# Saytlara bu məlumatları yaymaq qadağan edilir



**Saytlara şəxsi heyət və texnikanın hərəkəti haqqında məlumatları yaymaq qadağan edilir.**

Bu, Milli Məclisin İnsan hüquqları komitəsində müzakirə ediləcək "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna təklif edilən dəyişiklikdə qeyd olunub.

İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılmasına yol verməməlidir.

Eyni zamanda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə - on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, hazırlama, əldə etmə, daşıma və ya gəzdirmə 5 ilədək müddətdən azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılacaq.

Qanun layihəsinə görə, nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə 5 ildən 8 ilədək müddətdə azadlıqdan məhrumetmə, həmin əməllər xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə 7 ildən 12 ilədək müddətdə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

YENİ MÜSAVAT

Son səhifə

N 224 (8360) 13 dekabr 2023

Dekabr

## Bunları bilirsinizmi?

* Yataqdan düşərək ölmə ehtimalı iki milyonda birdir.
* ABŞ-da, yaşları 20 ilə 29 arasında olan zənci kişilərin üçdə biri ya həbsdə, ya da təcridxanada saxlanmaqdadır.
* Ortalama bir kişi həyatinin 3350 saatını təraş olmaq üçün xərcləyir.
* Yellənən kürsüdə heç dayanmadan yellənmə rekordu 440 saatdır.
* Bir şüşə qırıldığında, parçalanan parçalar saatda üç min millik bir sürətlə ətrafa saçılır.
* İnsan saçı, üç kilo ağırlıq qaldıra biləcək elastiklikdədi.
* Hər 25 nəfərdən biri astma xəstəsidir.
* Uran çılpaq gözlə görülə bilən bir planetdir.
* Kapitan Cook, Antarktika xaric bütün qitələrə ayaq basan ilk insandır.
* Bir okeanın ən dərin yerində, dəmir bir topun dibə çökməsi bir saatdan uzun davam edir.
* Bu günə qədər ölçülmüş ən böyük buz dağı, 200 mil uzunluğunda və 60 mil genişliyindədir və Belçikadan daha böyük bir sahəyə malikdir.
* Çarlz Dikens yuxusuzluq xəstəliyinə tutulmuşdu. Yalnız üzünü şimala dönsə yata biləcəyinə inanırdı.
* Açıq bir gecədə gözlə iki min ayrı ulduzu görmək mümkündür.

## Florensiyada Mikelancelonun gizli otağı ictimaiyyət üçün açılıb

**Mikelancelo Buonarrotinin rəsmləri olan gizli otaq Florensiyada ictimaiyyətə təqdim olunub. Otaq San Lorenso Bazilikasında Mediçi Kapellasında yerləşir. İndiyə qədər "gizli otaq" yalnız mütəxəssislər üçün əlçatan olub. İnsanları oraya buraxmaq üçün rəsmlərə zərər verməyən xüsusi işıqlandırma sistemi yaradılıb.**

Qeyd edək ki, 1530-cu ildə Roma Papası VII Kliment Mikelancelonu güclü Mediçi ailəsi ilə mübahisə etdikdən sonra ölümə məhkum edib. Sənətçi xilas olmaq üçün iki aya yaxın kiçik otaqda gizlənib. Bu müddət ərzində o, divarlarda əvvəlki işlərini xatırladan onlarla rəsm çəkib. Rəsmlər divarlara kömür və təbaşirlə çəkilib. 1975-ci ilə qədər, Mediçi Kapellasının direktoru Paolo Dal Pojetto muzeydən yeni çıxış üçün uyğun otaqlar axtarmağa başlayana qədər bu otağın varlığından heç kimin xəbəri olmayıb. Axtarış zamanı o, şkafın altından onu 10 metr uzunluğunda və üç metr eni olan otağa aparan keçid aşkar edib.

Mütəxəssislər qeyd ediblər ki, təsvirlər Mikelancelonun əsərlərinin bir növ "kataloquna" bənzəyir. Rəssam bu otaqdan sağ çıxacağına əmin olmadan onu yaradıb.

## Nadir fobiyaya görə yalnız pendir sendviçi yeyir

**İngiltərə sakini nadir bir fobiyaya görə yalnız pendir sendviçi yeyir. Bu barədə "Daily Mirror" qəzeti məlumat yayıb. 29 yaşlı Eyprel iddia edir ki, yemək qorxusu onda uşaqlıq yaşlarından başlamıb. Belə ki, uşaq ikən çörək və pendirdən başqa bütün yeməklər onda ürəkbulanması yaradırdı. "Yeni bir şey sınamaq istəyəndə çaxnaşma olur. Bütün bədənim titrəyir və mən çox əsəbləşirəm".**

Qız iddia edir ki, hər yemək öncə onda boğulmaq qorxusu yaranır. O, bir neçə dəfə düyü, makaron və tərəvəz yeməyə çalışsa da, hər dəfə xoşagəlməz qoxulara görə onda ürəkbulanması yaranıb.

29 yaşlı qız İngilis sevgilisi ilə görüşəndə dərhal yemək vərdişi ilə bağlı problemlərdən bəhs edib. "O, yeni bir şey sınamağımı təklif etsə də, bu, mümkün deyil" deyən qıza görə, həyatı boyu bu formada diet davam edəcək.

Çoxsaylı fiziki müayinələr Eypreldə hər hansı problemlərin olmadığını üzə çıxarıb. "Pendir sendviçlərindən o qədər bezmişəm ki. Amma heç bir müalicə mənə kömək etmir. Bu qorxunu dəf edə bilmirəm" deyən qıza görə, pendir və çörəkdən başqa yeyə biləcəyim tək şey çipsdir.

İngilis qız gündəlik üç böyük qutu portağal suyu içir. Bu, onun gün ərzində aldığı yeganə vitamindir.

# Kanadanın şərqində 30 minə yaxın ev işıqsız qalıb



**Kanadanın şərqində 30 minə yaxın ev işıqsız qalıb. Bu barədə Kanadanın yerli telekanalı məlumat yayıb. Milli Meteorologiya Bürosunun məlumatına görə, küləyin sürəti 28 m/s-ə çatıb. Güclü yağışlar nəticəsində bəzi yerlərdə yolları su basıb. Bundan əlavə, Kanadanın Atlantik əyalətləri arasında bərə əlaqəsi qismən dayandırılıb. Bazar ertəsi bir sıra məktəblərdə dərslər ləğv edilib. Zərərçəkmişlər barədə məlumat daxil olmayıb.**

## Trixoloq başda çıxan sızanaqların səbəbini açıqlayıb



**Başdakı sızanaqlar bir çox xəstəliklərin nəticəsidir". Bunu rusiyalı trixoloq və kosmetoloq Anastasiya Kurskaya bildirib. Çox vaxt başdakı sızanaqlar yağ vəzilərinin həddindən artıq ifrazından qaynaqlanır. Mütəxəssisin fikrincə, ifrazın səviyyəsi və nəticədə baş dərisində sızanaqların yaranması riskinin artması hamiləlik və yetkinlik kimi hormonal dəyişikliklərlə bağlıdır.**

"Həmçinin bu xoşagəlməz vəziyyətin gözlənilməz səbəbi uzunmüddətli və ya qısamüddətli stres ola bilər. Bundan əlavə, baş dərisindəki sızanaqlar bakterial infeksiya, saç dərisinə düzgün qulluq edilməməsi və ya müxtəlif saç baxım vasitələrinin istifadəsi nəticəsində yaranan allergiya ola bilər. Bəzən baş dərisində sızanaq dermatit və ya pullu dəmrov kimi tibbi problemlərin nəticəsi ola bilər", - deyə həkim əlavə edib.



## Aspirin xərçəngin müalicəsində kömək edə bilər

**Böyük Britaniyanın Kardiff Universitetinin alimləri 118 tədqiqatda bir milyona yaxın xəstənin məlumatlarını araşdırıblar. Təxminən 10 il ərzində onlar bir qanunauyğunluq aşkarlayıblar. Məlum olub ki, xərçəng xəstələrinə aspirin təyin edildikdə, onların metastaz və qan damarlarında ağırlaşma riski azalıb. Bundan əlavə, müntəzəm xərçəng müalicəsi zamanı aşağı dozada aspirin qəbulu xəstələrin sağ qalma şansını 20 faiz artırıb.**



## "Çeburaşka" filminin davamı ekranlara qayıdır

**Rusiya kassasında ən çox gəlir gətirən Dmitri Dyaçenkonun "Çeburaşka" filminin davamı 2025-ci ilin dekabrında kinoteatrlarda nümayiş olunacaq. Bu barədə filmin prodüseri Denis Jalinski məlumat verib. "Filmin davamı üzərində iş artıq başlayıb, biz bunu daha gizlətməyəcəyik. Ümid edirik ki, film iki ildən sonra Yeni il bayramında ekranlara çıxacaq, uşaqları, böyükləri və kinoteatrları da sevindirəcək. Biz təkmilləşdirməyə çalışacağıq və ikinci filmin birincidən daha gülməli, maraqlı olacağına ümid edirik", - Jalinski bildirib.**

## Soyuqdəymənin müalicəsi zamanı buraxılan dörd əsas səhv açıqlandı



**İnsanlar çox vaxt kəskin respirator virus infeksiyaları (KRVİ) və qripdə özünümüalicə ilə məşğul olurlar, çünki onlar artıq mövsümi soyuqdəymələrə öyrəşiblər. Ancaq pandemiyadan sonra bütün dünyada KRVİ, qrip və COVİD-19-un paralel dalğası var. Belə şəraitdə dəqiq diaqnoz qoyulmadan özbaşına müalicə etmək olmaz. Bu barədə rusiyalı həkim Aleksandr Lavrişov soyuqdəymə zamanı buraxılan məşhur səhvlər barədə danışarkən bildirib.**

Həkim ilk səhvlərdən biri kimi vaksinlərə qarşı qorxu və ya inamsızlığı göstərib. Həkim qeyd edib ki, vaksin sağaltmır, o, sadəcə, immunitet sistemini gücləndirir və bu prosedur istənilən vaxt həyata keçirilə bilər. Lavrişev daha sonra vurğulayıb ki, bu gün soyuqdəymə üçün universal antiviral dərman yoxdur.

"Qrip və koronavirus üçün ayrıca dərmanlar var. Bununla belə, bu preparatlar bütün virusları məhv etmir, ancaq konkret viruslarla mübarizə aparır", - deyə terapevt izah edib. Həkim həmçinin qan testi və həkim resepti olmadan, xüsusən də profilaktika məqsədilə antibiotik qəbul etməməyə çağırıb.

Bundan başqa, ümumi zəiflik olduqda yüksək hərarətə dözməkdən çəkindirib. Sonda Lavrişov soyuqdəymə zamanı buraxılan daha bir səhvə işarə edib. "Çox vaxt hamilə qadınlar körpəyə zərər verəcək mifi ilə əlaqədar dərman qəbul etmirlər. Ancaq bu gün KRVİ-yə qarşı hamilə qadınların qəbul edə biləcəyi çox sayda dərman var", - deyə o, sözlərini yekunlaşdırıb.

## ABŞ prezidentliyinə namizəd İlon Maskla canlı yayım zamanı təbii ehtiyacını ödədi

**Respublikaçı Partiyasından ABŞ prezidentliyinə namizəd Vivek Ramasvami "X" sosial şəbəkəsində (keçmiş "Twitter") canlı yayım zamanı mobil telefonun mikrofonunu açıq qoyub və İlon Mask da daxil olmaqla, bir neçə məşhur amerikalı ilə canlı yayıma ayaqyoluna baş çəkib. Sahibkar ABŞ prezidentliyinə namizədin bu cür hərəkətlərindən pərt olub. Ramasvami mikrofonun söndürülmədiyini öyrənən kimi translyasiya iştirakçılarından üzr istəyib. "Ümid edirəm ki, özünüzü daha yaxşı hiss edirsiniz", - deyə Mask Ramasvamiyə müraciət edib.**

O da öz növbəsində özünü əla hiss etdiyini bildirib. Qeyd edək ki, həmin vaxt canlı yayımı 100 minə yaxın insan izləyib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 3311

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.